**Əhli beyt və səhabələr birliyi**

**Əhli Sünnə ilə İmamilər arasında müştərək hədislər silsiləsi (2)**

# “Müsəlman haqları” mövzusunda Əhli Sünnə ilə İmamilər arasındakı

# MÜŞTƏRƏK HƏDİSLƏR


**Usamə Muhəmməd Zuheyr əş-Şinti**
Elmi tədqiqatlar və araşdırmalar mərkəzində araşdırmaçı

# MÜNDƏRİCAT

Mərkəzin müqəddiməsi ....6
Müqəddimə....11
Camaatla olmağa təşviq babı....16
Müsəlmanlar arasındakı birliyə hərislik babı ....18
Allah yanında müsəlmanın toxunulmazlığı babı....19
Müsəlmanların işlərinə diqqətin zəruriliyi babı....20
Möminlər bir bina kimidirlər ....21
Təfriqədən çəkinmə babı....22
Müsəlmanların bir-birilərinə həris olmaları babı ....23
Mömінin və müsəlmanın vəsfi....24
Haqqı ilə şəhadət nəfsi və malı qoruyur....26
Qanların, malların və namusların toxunulmazlığının şiddəti....28
Müsəlmanların qanı bərabərdir və onlar başqalarına qarşı əlbir olmalıdırlar ....30
İmanın böyük günah etmiş kəsdən qalxması....31
Müsəlmanların haqları ....32
Müsəlmana zülm etmənin haram olması ....33
İnsanlar arasında mərhəmətə təşviq ....34
Başqaları ilə mülayim olmaq....35
Başqaları ilə davranışda dözümlülüyün fəziləti....36
İnsanlara yaxşılıq etmək....37
İnsanların arasını düzəltmək....38
Müsəlmana ikram etməyə təşviq....39
Müsəlmanla gözəl görüşmək ....40
Müsəlmanı yedirən, içirən və geydirən kəs ....41
Özünə istədiyini qardaşı üçün istəmək imandandır....42
Müsəlmanı tərk etməyin nəhy olunması....43
Allahın kölgələndirəcəyi kəslər ....44
Bir birinizi sevmədikcə, iman gətirməzsiniz....46

İnsanlara haqlarını vermək....47
Valideyinlər öldükdən sonra onlara yaxşılıq etmək....48
Yaxşı əməllər, o cümlədən valideyinə yaxşılıq etməklə təvəssül etmək....49
Valideyinlərinin biri ilə görüşmüş, lakin bunun cənnətə daxil olmağına səbəb olmaması....53
Valideyin müsəlman olmasa belə ona yaxşılıq etmək....55
Qohumlarla əlaqə yaratmaq ömrün və ruzinin artmasına səbəbdir....56
Saleh əməlləri yaymaq və bu xüsusda gecikməmək....57
Kəniz və bakirələrin izin istəmələri forması....58
Mehrdə qəsdin müstəhəbliyi....59
Ərin arvad üzərində haqlarının əzəməti....60
Qadınlarla bağlı tövsiyə....62
Qadınlarla gözəl davranma....63
Övladları namaza səsləmək və yataqlarını ayırmaq....64
Qonşularla bağlı şiddətli tövsiyə....65
Qonşuya və qonağa yaxşılıq etmək, xeyirdən başqa bir söz söyləməmək və bunun imandan sayılması....66
Qonşunun hədləri....67
Qonşuya əziyyət verməyin haram olmasının bəyanı....68
Qonşusuna əziyyət verənin lənətlənməsi....69
Mömin qonşusu ac ikən doymamalıdır....70
Atasından qeyrisinin atalığını iddia edənin günahı....71
Salamı birinci verən kəs....72
Əmək haqqının verilməsi....73
Dili qorumaq....74
Söyüş və lənət kimlərə qadağan edilib....75
Müsəlmanlara tənə etmək və onları lənətləmək....76
Lənətə layiq olmayan kəsi lənətləyən kəsin məzəmmət olunması....77
Zənn və həsədin pislənməsi haqqında deyilənlər....78

Müsəlmanların özəl həyatlarını araşdırmağın nəhy olunması .........79
Müsəlmanların camaatından ayrılmağın nəhy olunması ..................80
Möminə zərər vuran və ya ona hiylə gələn kəs ..................................81
Söz gəzdirməyin məzəmmət olunması...............................................82
Söz gəzdirmək və onun insanlar arasında təfriqəyə səbəb olması ..83
Üçüncü şəxsin hüzurunda iki adamın gizli danışması.......................84
Haqlı olduğu halda belə mübahisəni tərk edən kəs............................85
Mübahisənin məzəmmət olunması .....................................................86
Soyları söymək cahiliyyət əməllərindəndir..........................................87
Ədalətli rəhbərin fəziləti .......................................................................88
Beyətə vəfa etmək ..................................................................................89
İstifadə olunmuş mənbələr ...................................................................90

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

## MƏRKƏZİN MÜQƏDDİMƏSİ

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Əvvəlkilərin və sonrakıların İlahı, göylərin və yerin himayəçisi, Din gününün Sahibi, O Allah ki, bütün məxluqatlar Onun Rəbb olduğuna şahidlik edir, bütün məbudları Onun Tək İlah olduğunu təsdiq edir, Onun Əzəməti qarşısında zəlil olmadan izzət yoxdur. Onun mərhəmətinə möhtac olmadan zənginlik mümkünsüzdür, Onun Nuruna sığınmadan hidayətə varmaq qeyri-mümkündür.

Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, O Təkdir və Onun şəriki yoxdur – bu elə sözlərdir ki, buna səmalar və yer şahidlik etmiş, bütün məxluqat bunun üçün yaradılmışdır, bunun üçün Uca Allah rəsullar göndərmiş, kitablar nazil etmiş, şəriət qanunları qoymuşdur.

Həmçinin şəhadət verirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir, vəhyi etibar etdiyi şəxsdir, məxluqatının ən xeyirlisidir. O, güclü din və doğru mənhəclə

göndərilmişdir. Allah onu aləmlərə rəhmət, müttəqilərə imam və bütün məxluqata hüccət olaraq göndərmişdir.

Sonrasına gəlincə:

Bu əzəmətli dinin əsas qayəsi ümmətin birliyini mühafizə etmək, hətta kiçik məsələlərdə olsa belə parçalanmağa imkan verməməkdir.

Əbu Sələbə əl-Xuşəninin ﵁ hədisində qeyd olunduğu kimi: "Peyğəmbər ﷺ bir yerə getdikdə insanlar ətraflara və vadilərə ayrılardılar. Rəsulullah da belə buyurdu: *"Sizin müxtəlif yerlərə və vadilərə belə ayrılmağınız şeytandandır"*. Bundan sonra o, bir yerə getdikdə insanlar bir-birilərinə yaxın oldular. Hətta o dərəcədə yaxın oldular ki, onların üzərinə örtük örtülsəydi, hamısını əhatə edərdi – deyildi".[1]

Rəvayət olunur ki, Əbu Məsud əl-Ənsari ﵁ demişdir: "Rəsulullah ﷺ namazdan öncə bizim çiyinlərimizi sürtüb deyərdi: *– Düzlənin, ixtilaf etməyin ki, qəlbləriniz də ayrılmasın, arxamda (ön sırada) həddi-büluğa çatmış elmli kəslər dursun, sonra da digərləri və digərləri."*[2]

Bir dəfə Peyğəmbər ﷺ sırada sinəsini qabağa vermiş bir kişi gördü və təkbir edib namaza başlamadı və dedi:

---

[1] Əbu Davudun "Sünən" əsəri (2628), Əhmədin "Müsnəd" əsəri (17771), Nəsainin "Sünən əl-kubra" əsəri (8856), İbn Hibbanın "Səhih" əsəri (2690), Hakimin "əl-Mustədrak" əsəri (2540), Albani hədisin səhih olduğunu demişdir.

[2] Muslimin "Səhih" əsəri (432), Nəsainin "Sünən" əsəri (807), İbn Macənin "Sünən" əsəri (976), Əhmədin "Müsnəd" əsəri (17101).

*"Ey Allahın qulları, ya sıralarınızı düzəldəcəksiniz, ya da Allah sizdən üz döndərəcəkdir."*[3]

Beləcə, Peyğəmbər ﷺ müxtəlif yerlərdə olan möminləri zahirən sadə görkəmlərindən deyil, sıralarındakı ixtilaflarından ayırd edərdi, çünki sıraların düzgün olmaması qəlblərin ixtilafından xəbər verir. Müsəlmanların camaatından hər hansı bir formada təfriqəyə düşmək şəriət baxımından doğru hesab olunmur, əqli baxımdan rədd olunur və fitri baxımdan inkar edilir.

Buna görə də Uca Allah Öz elçisi Muhəmmədin ﷺ təfriqəçilərin sıralarında olmasını istisna edərək buyurur: **"Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir."**[4]

Möminlərə də həm qəlbdə, həm də sözdə onun izi ilə birlikdə getmələrini buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən, O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola yönələsiniz."**[5]

---

[3] Muslimin "Səhih" əsəri (436), Nəsainin "Sünən" əsəri (810), Əhmədin "Müsnəd" əsəri (18434).

[4] "əl-Ənam" surəsi, 159.

[5] "Ali İmran" surəsi, 103.

Həmçinin buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki,** *o yollar* **sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə** *pis əməllərdən* **çəkinəsiniz."**[6]

Möminlərə də təfriqə və ixtilafda kafirlərə bənzəməyi qadağan etmiş, müsəlman camaatından ayrılanları şiddətli əzabla hədələyərək buyurur: **"Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir."**[7]

Açıq-aydın kitabda kitab əhlinin düşdükləri ixtilaf və təfriqənin səbəbinin onların haqsız olaraq bir-birinə qarşı çıxmaları olduğunu bildirmişdir ki, bunu da onlar cahillik və ya bilməməzlik ucbatından deyil, haqqı bilərək etmişdilər. Uca və Böyük Allah buyurur: **"Onlara məhz elm gəldikdən sonra, öz aralarındakı paxıllıq ucbatından, ixtilafa düşdülər."**[8] Həmçinin buyurur: **"Kitab verilənlər onlara yalnız aydın bir dəlil gəldikdən sonra firqələrə bölündülər."**[9]

Ümmətimiz də uzun müddətdir ki, məzhəbçilik alovu içərisindədir – bu alov isə hər şeyi yandırıb-yaxmaqdadır. Bununla belə, bu ümmətin birliyi üçün səmimi-qəlbdən

---

[6] "əl-Ənam" surəsi, 153.
[7] "Ali İmran" surəsi, 105.
[8] "əş-Şura" surəsi, 14.
[9] "əl-Beyyinəh" surəsi, 4.

çalışanlar az da olsa mövcuddur. Lakin onların da bir çox nöqsanları vardır. Elm əhli və onların nurundan bəhrələnən kəslər bu mühüm məsələ ilə bağlı müəyyən işlər görməlidir ki, Uca Allahın qəzəbindən qorunaraq Onun razılığını əldə etmiş olsunlar, habelə müsəlmanların qəlblərini bir-birinə yaxınlaşdıra bilsinlər.

Bu ülvi məqsədi əsas tutaraq Əhli Beyt və Səhabələr birliyinin elmi araşdırmalar mərkəzi olaraq "Əhli Sünnə ilə İmami Şiələri arasında mövcud olan müştərək hədislər silsiləsi" adlı bu layihəmizi həyata keçirməyi düşündük ki, doğru yol istiqamətində növbəti bir addım olsun. Müsəlmanlar arasında birlik və yaxınlaşma mövzusunda bir sıra konfrans və forumlar keçirilsə də, bunların çoxu nəticəsiz olmuşdur, çünki səmimiyyət və aydın məqsəd olmadıqca, əməli ciddi layihələr də baş tutmayacaqdır.

Hər birimiz ümid edirik ki, bu silsilə ilk öncə Uca və Böyük Allahın razılığına səbəb olar, sonra da bu ümmətin övladlarından birliyə və vəhdətə səmimiyyətlə çalışanların xeyirxah işinə xidmət edər.

Son duamız isə budur ki, "həmd aləmlərin Rəbbi olan Allahadır".

***Muhəmməd Salim əl-Xıdır***
*Elmi araşdırmalar mərkəzinin rəhbəri*

# MÜQƏDDİMƏ

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur, biz Ona çoxlu, gözəl və mübarək həmdlər edirik. Allahın insanlara göndərdiyi elçilərin ağası Muhəmmədə, onun ailəsinə və səhabələrinə, habelə Qiyamət gününədək onun yolunu tutub gedənlərə salavat və salam olsun.

Bu müxtəsər mövzunun mahiyyəti insan haqları ilə bağlı Əhli Sünnə ilə İmamilər arasında ittifaq edilmiş hədislərin cəm olunmasıdır. Bu işin də əsas hədəfi İslam dininin sabit əsasları ilə bağlı məsələlərdə ittifaq yaratmaqdır. Araşdırmaçı ləfz və məna baxımından eyni olan bir sıra hədis və rəvayətləri toplamağa nail olmuşdur. Bu da araşdırmaçıya və oxucuya əsas verir ki, bu mövzu ilə bağlı həqiqətən də ittifaqın mövcudluğu barədə düşünsün. Həmçinin digər mövzularla da bağlı müştərək hədislərin toplanması üçün başqalarına bir təkan versin.

Təklif olunmuşdur ki, mövzu ilə əlaqəli rəvayətlər olduqca əhəmiyyətli olduğu üçün və hənif İslam dininin onun üzərində durduğu üçün bir yerə cəm olunsun. Belə ki, bu əzəmətli din Uca və Böyük Allahın haqlarının ödənilməsi üzərində qurulmuşdur. Həmçinin məxluqatın haqlarının da ödənilməsi, onların öz aralarında gözəl tərzdə müamələ etmələri də buna aiddir. Başqa sözlə desək, müsəlman olan kəs öz həyatı boyunca İzzət və Cəlal Sahibi olan Allahı ibadətlərdə təkləşdirməlidir ki, bu da Nöqsansız Allahın əmrlərinə, habelə Onun elçisi

Muhəmmədin ﷺ əmrlərinə tabe olmaqla mümkündür. Həmçinin, müsəlman ətrafındakılarla, onların müsəlman olub-olmamasından asılı olmayaraq, gözəl tərzdə davranmalıdır. Əgər biz İzzət Sahibi olan Allahın Kitabına və peyğəmbərimiz Muhəmmədin ﷺ sünnəsinə nəzər salsaq, orada müsəlmanların sıralarının və qəlblərinin birləşdirilməsinə çalışmağın gərək olduğuna təşviqin şahidi olarıq. Uca Allah bu xüsusda buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz."**[10]

Peyğəmbər ﷺ də buyurmuşdur ki, müsəlmanların birliyi və parçalanmamaları İzzət və Cəlal Sahibi olan Allahın razı qaldığı əməldir. Peyğəmbər ﷺ demişdir: *"Allah sizlərin üç əməlinizdən razı qalmış, digər üç əməlinizdən isə razı qalmamışdır: Allaha ibadət edib, Ona heç bir şeyi şərik qoşmamanızdan, Allahın ipindən birlikdə yapışmanızdan və parçalanmamanızdan razı qalmış, dedi-qodu yaymanızdan, çoxlu sual vermənizdən və malınızı israf etmənizdən isə razı qalmamışdır."*[11]

Peyğəmbər ﷺ müsəlmanların kəlmələrinin birliyinə, onların qəlblərinin birliyinə ən həris olan insan idi. Həmçinin o, müsəlmanları təfriqədən çəkindirən və onlar

---

[10] "Ali İmran" surəsi, 103.

[11] Muslimin "Səhih" əsəri (4578).

arasında ayrılıq düşməsindən ehtiyat edən birisi idi. O, bildirmişdir ki, bütün zaman və məkanlarda bu təfriqədən faydalanan şeytan və onun dostlarıdır. Peyğəmbər ﷺ demişdir: *"Şübhəsiz ki, şeytan Ərəbistan yarımadasında ona ibadət edilməsindən ümidini üzmüşdür. Lakin o, insanlar arasında qarşıdurma salmağa çalışacaqdır."*[12]

İmam Nəvəvi demişdir: "Hədisin mənası odur ki, şeytan Ərəbistan yarımadasında insanların ona ibadət edəcəyindən ümidini üzmüşdür. Lakin o, onların arasında qarşıdurmalar, nifrət, müharibə və fitnələr salmağa çalışacaqdır". [13]

Ovs və Xəzrəc qəbilələrinin arasında fitnə alovu düşdükdə Peyğəmbər ﷺ həmin odu söndürməyə çalışarkən yəhudilərin onların aralarını pozmağa çalışması səbəbindən düşdükləri vəziyyəti tənqid edərək demişdir: *"Mən sizin aranızda ola-ola cahiliyyət çağırışları edirsiniz?"*[14]

---

[12] Muslimin "Səhih" əsəri (7281).

[13] Muslimin "Səhih" əsərinin şərhi (17/156).

[14] Hafiz İbn Kəsir Uca Allahın **"Allahın ipindən birlikdə yapışın və parçalanmayın..."** ayəsinin (2/90) təfsirində demişdir: Muhəmməd ibn İshaq ibn Yəsər və başqaları demişlər: "Bu ayələr Ovs və Xəzrəc qəbilələri barəsində nazil olmuşdur. Belə ki, yəhudilərdən biri Ovs və Xəzrəc qəbilələrinin yanından keçərkən onların birliyi onu narahat etmiş, bu səbəbdən də onların yanına başqa bir nəfəri göndəribmiş ki, Buəs günü döyüşü və aralarında baş vermiş digər döyüşlər barədə onlara xatırlatma etsin. Həmin adam belə də edir. Bundan sonra onlar bir-birilərinə qəzəblənmiş və mübahisə etməyə başlamışlar. Daha sonra onlar silahlanaraq toplanıb əl-Hərra

Həmçinin Peyğəmbər ﷺ müsəlman cəmiyyətlərinin hansı vəziyyətdə olması gərəkdiyi xüsusunda aydın bir misal çəkərək buyurmuşdur: *“Bir-birilərinə sevgi göstərməklərində, mərhəmət etməklərində, ürək yandırmaqlarında möminlərin misalı bir bədənin misalıdır – onda bir üzv ağrıyarsa, bədənin digər üzvləri də buna yuxusuzluq və bədən hərarəti ilə cavab verərlər.”*[15]

Hafiz İbn əl-Cəuzi demişdir: “Bədən üzvləri bir yerdə toplandığı kimi, iman da möminləri bir bədən kimi toplayır. İman əhli belədir: başqasına edilmiş əziyyətdən onlar da əziyyət çəkərlər”. [16]

Hörmətli oxucular, mövzumuzun mahiyyəti budur, – sizlərə təqdim edirik ki, islah və hidayət üçün bir addım olsun.

Son duamız da belədir: “Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur”.

***Usamə Muhəmməd Zuheyr əş-Şinti***

---

adlanan yerdə görüşmək üçün sözləşmişlər. Bu xəbər Peyğəmbərə çatdıqda, onları sakitləşdirərək belə demişdi: *“Mən sizin aranızda ola-ola cahiliyyət çağırışları edirsiniz?”* Sonra onlara bu ayəni oxumuşdu. Onlar da etdiklərinə peşman olmuş, silahlarını yerə atmış və barışaraq bir-birilərini qucaqlamışlar.

[15] Hədisi Buxari (5665) və Muslim (2586) rəvayət etmişlər.

[16] “Kəşful-muşkil” (2/212).

# Müsəlman haqları mövzusunda MÜŞTƏRƏK HƏDİSLƏR

## "Camaatla olmağa təşviq" babı

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Səhabələrimə qarşı yaxşı davranın, sonra onlardan sonra gələnlərə, sonra da onlardan sonra gələnlərə. Sonra elə bir qövm gələcək ki, onlardan and içmək tələb olunmadan öncə and içəcəklər, onlardan şahidlik etmələri tələb olunmadan öncə şahidlik edəcəklər. Sizlərdən kim Cənnətin ləzzətini dadmaq istəyirsə, camaatla olsun, çünki şeytan tək olan kəslə birlikdə olur, iki nəfərdən isə daha uzaq olur. [Yad] kişi qadınla xəlvətdə qalarsa, şeytan onların üçüncüsü olar. Sizlərdən kim savablarına görə sevinir, günahlarına görə isə kədərlənirsə, o kəs mömindir"*.

**Mənbə:** Abdullah ibn Ömər ﷺ. Nəsainin "Sünən əl-kubra" əsəri (9219), Əhməd (177).

2 – *"Allahın əli camaatladır, kim ondan ayrılarsa, canavar sürüdən qoyunu aldığı kimi, şeytan da onu ələ alar"*.

**Mənbə:** Usamə ibn Şərikdən ﷺ. ət-Təbəraninin "əl-Mucəm əl-kəbir" əsəri (489).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Dönəmlərin ən xeyirlisi səhabələrimin dövrüdür, sonra onlardan sonra gələnlərin. Sonra yalan yayılacaq və iş o yerə çatacaq ki, birisindən şəhadət deməsi tələb olunmadan öncə şəhadət verəcəkdir. Sizlərdən kim Cənnətin ləzzətini dadmaq*

*istəyirsə, camaatla olsun, çünki şeytan tək olan kəslə birlikdə olur. Sizlərdən kim savablarına görə sevinir, günahlarına görə kədərlənirsə, o kəs mömindir”.*

**Mənbə:** “Avali əl-Ləali” (1/123).

2 – *“Allahın əli camaatın üzərindədir və camaatladır”.*

**Mənbə:** Əli ibn Əbu Talib ﵁. “Nəhc əl-bəlağə” (2/8), “Bihar əl-ənvar”.

* * * * *

## "Müsəlmanlar arasındakı birliyə hərislik" babı

**a) Əhli Sünnə mənbələrindən:**

Allahın Elçisi ﷺ namazda əlini çiyinlərimizə qoyub deyərdi: *"Düzlənin, ixtilaf etməyin ki qəlbləriniz ixtilafa düşməsin. Arxamda (ön sırada) həddi-büluğa çatmış elmli kəslər dursun, sonra da digərləri və digərləri".*

**Mənbə:** Abdullah ibn Məsud ؓ. Muslim (1000), Əbu Davud (674) və Əhməd (4373).

**b) İmamilərin mənbələrindən:**

Rəsulullah ﷺ namazda əlini çiyinlərimizə qoyub deyərdi: *"Düzlənin, ixtilaf etməyin ki, qəlbləriniz ixtilafa düşməsin".*

**Mənbə:** "Müstədrak əl-vasəil" (6/507), "Cami əhadis əş-şiə" (6/470)

* * * * *

## "Allah yanında müsəlmanın toxunulmazlığı" babı

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Allah üçün mömin insan mələklərdən daha üstündür".*

**Mənbə:** Əbu Hureyra ﵁. İbn Macə (3947).

2 – Mən Allahın Elçisini ﷺ Kəbəni təvaf edərkən gördüm, o belə deyirdi: *"Sən necə də gözəlsən, qoxun necə də gözəldir, sən necə də əzəmətlisən, hörmətin necə də əzəmətlidir. Muhəmmədin canı əlində olan Allaha and olsun ki, Allah yanında möminin hörməti səninkindən daha çoxdur: malı, qanı və onun barəsində pis zənn etməməklə."*

**Mənbə:** Abdullah ibn Amr ibn As ﵁. İbn Macə (3932).

**b) İmamilərin mənbələrindən:**

Rəsulullah ﷺ Kəbəyə baxıb dedi: *"Ey ev, sənə salam olsun! Sən necə də əzəmətlisən, Allah yanında hörmətin necə də əzəmətlidir. Vallahi ki, mömin səndən daha hörmətlidir, belə ki, Allah səndən bir, mömindən isə üç şeyi haram buyurmuşdur: malını, qanını və onun barəsində pis zənn etməyimizi".*

**Mənbə: "**Mişkat əl-ənvar" (149), "Bihar əl-ənvar" (64/71).

* * * * *

## "Müsəlmanların işlərinə diqqətin zəruriliyi" babı

**a) Əhli Sünnə mənbələrindən:**

*"Müsəlmanların işləri ilə maraqlanmayan kəs onlardan deyildir. Kim səhər açıldıqda Allah, Onun Elçisi, Onun Kitabı, imamı və bütün müsəlmanlar üçün nəsihət etməzsə, onlardan deyildir".*

**Mənbə:** Hüzeyfə ibn əl-Yəmən ﵁. "əl-Mucəm əl-Əvsat" (7473).

**b) İmamilərin mənbələrindən:**

*"Səhər açıldıqda müsəlmanların işləri ilə maraqlanmayan kəsin İslamla bir əlaqəsi yoxdur. Kim bir nəfərin: – Ey müsəlmanlar! – deyə qışqırdığına şahid olar, sonra da ona cavab verməzsə, müsəlmanlardan deyildir".*

**Mənbə:** "ən-Nəvadir" (142), "Bihar əl-ənvar" (72/21), "Mustədrak əl-vasəil" (11/116)

* * * * *

## Möminlər bir bina kimidirlər

**a) Əhli Sünnə mənbələrindən:**

*“Bir-birilərinə sevgi göstərməklərində, mərhəmət etməklərində, ürək yandırmaqlarında möminlərin misalı bir bədənin misalıdır – ondan bir üzv ağrıyarsa, bədənin digər üzvləri də buna yuxusuzluq və bədən hərarəti ilə cavab verərlər”.*

**Mənbə:** Buxari (6011), Muslim (6751), Əhməd (18373).

**b) İmamilərin mənbələrindən:**

*“Bir-birilərinə yaxşılıq etməkdə, mərhəmət göstərməkdə, ürək yandırmaqlarında möminlərin misalı bir bədənin misalıdır; ondan bir üzv ağrıyarsa bədənin digər üzvləri də buna yuxusuzluq və bədən hərarəti ilə cavab verərlər”.*

**Mənbə:** “əl-Mumin” (39), “Bihar əl-ənvar” (71/274). Cəfər əs-Sadiqdən.

* * * * *

## “Təfriqədən çəkinmə” babı

**a) Əhli Sünnə mənbələrindən:**

*“Şübhəsiz ki, şeytan qoyuna hücum edən canavar kimi, insanın canavarıdır – o, sürüdən ayrı düşən qoyunu qapar. Odur ki, təfriqədən çəkinin, camaatdan və məsciddən ayrılmayın”.*

**Mənbə:** Əhmədin “Müsnəd” əsəri (36/358), Təbəraninin “Mucəm əl-kəbir” əsəri (20/164).

**b) İmamilərin mənbələrindən:**

*“Təfriqədən çəkinin! Şübhəsiz ki, sürüdən ayrı düşən qoyun canavarın olduğu kimi, insanlardan ayrı düşən kəs də şeytanındır”.*

**Mənbə:** “Nəhcul-bəlağə” (2/8), Əlidən rəvayət olunur.

* * * * *

## “Müsəlmanların bir-birilərinə həris olmaları” babı

**a) Əhli Sünnə mənbələrindən:**

*“Mömin möminin güzgüsüdür, mömin möminin qardaşıdır – onun ehtiyacını ödəyər, ona yardım edər”.*

**Mənbə:** Əbu Hureyra ﵁. Əbu Davud (4920), əl-Bəzzar (8109).

**b) İmamilərin mənbələrindən:**

*“Mömin mömin qardaşının güzgüsüdür, olmadıqda nəsihət edər, gördüyündə ona əziyyət edən şeyi aradan qaldırar, məclisdə ona yer verər”.*

**Mənbə:** “Bihar əl-ənvar” (71/233), “Vasəil əş-şiə” (12/210)

* * * * *

## Möminin və müsəlmanın vəsfi

### a) Əhli Sünnə mənbələrindən:

1 – *"Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən salamatdırlar. Mömin o kəsdir ki, insanların canları və malları ondan salamatlıqdadır".*

**Mənbə:** Əbu Hureyra ﵁. Tirmizi (2629), Nəsai (4995).

Cabir ibn Abdullah ﵁. Muslim (41). Muslim yalnız birinci cümləni rəvayət etmişdir.

Abdullah ibn Amr ibn əl-As ﵁. Buxari (10), Əbu Davud (2481), Nəsai, 4996. Nəsaidə belə bir əlavə də vardır: *"Mühacir Allahın nəhy etdiklərini tərk edən kəsdir".*

2 – *"Kim bizim kimi namaz qılar, qibləmizə yönələr, kəsdiyimizi yeyərsə, həmin şəxs müsəlmandır, Allahın və Elçisinin himayəsi onun üzərindədir. Əsla Allahın himayəsini aşmayın".*

**Mənbə:** Ənəs ibn Malik ﵁. Buxari (391), Nəsai (8/105).

### b) İmamilərin mənbələrindən:

1 – *"Möminin nə üçün mömin adlandığını sizə xəbər verimmi? Çünki insanlar öz canları və malları xüsusunda ondan salamatdırlar. Müsəlmanın nə üçün müsəlman adlandığını sizə xəbər verimmi? Müsəlman o kəsdir ki, insanlar onun əlindən və dilindən salamatdırlar. Sizlərə mühacirin kim olması barədə xəbər verimmi? Günahları və Allahın haram buyurduğu şeyləri tərk edən kəs".*

**Mənbə:** "İləl əş-şərai" (2/344), "Bihar əl-ənvar" (64/60), (72/148).

2 – "*Bizim namazlarımızı qılan, qibləmizə yönələn, kəsdiyimizi yeyən kəs müsəlmandır, Allahın və Elçisinin himayəsi onun üzərindədir. Kim istəyir onu qorusun, kim də istəyir onu aşsın*".

**Mənbə:** "Bəsair əd-dəracət" (176).

* * * * *

## Haqqı ilə şəhadət nəfsi və malı qoruyur

**a) Əhli Sünnə mənbələrindən:**

*"İnsanlar Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir deyib, namaz qılıb zəkat verənədək onlarla vuruşmaq mənə əmr olundu. Bunları etsələr, İslamın haqları istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, onların hesabı isə Allaha aiddir".*

**Mənbə:** Bu hədis Abdullah ibn Ömər ﵁[17], Əbu Hureyra ﵁[18], Ənəs ibn Malik ﵁[19], Cabir ibn Abdullah ﵁[20], Muaz ibn Cəbəl ﵁[21] və başqa səhabələrdən nəlq olunmuşdur. Elm əhlinin də dediyi kimi, bu hədis mütəvatir hədisdir.[22]

---

[17] Buxari (25), Muslim (22). Muslimin rəvayətində *"İslamın haqqı istisna olmaqla"* ifadəsi qeyd olunmamışdır.

[18] Buxari (1399), Muslim (20), Əbu Davud (2640), Tirmizi (2606), Nəsai (2443) və İbn Macə (71).

[19] Buxari (392), Nəsai (5003). Nəsainin rəvayətində deyilir ki, Məymun ibn Səyyəh Ənəsdən soruşdu: "Ey Əbu Həmzə, müsəlmanın qanı və malını haram edən nədir?" O dedi: "Kim Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir şəhadətini deyər, qibləmizə yönələr, namazımızı qılar, kəsdiyimizi yeyərsə, o kəs müsəlmandır, müsəlmanların hüquq və öhdəlikləri ona da aiddir".

[20] İbn Macə (3928).

[21] İbn Macə (72).

[22] Misal üçün Suyutinin "əl-Fəth əl-kəbir" əsərinə (2617) və əl-Kəttaninin "Nuzum əl-mutənəsir" əsərinə (səh.40) bax.

**b) İmamilərin mənbələrindən:**

*“İnsanlar Allahdan başqa ibadətə layiq məbud yoxdur deyənədək onlarla vuruşmağa əmr olundum. Bunları etsələr, haqlar istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, onların hesabı isə Allaha aiddir”.*

**Mənbə:** “Avali əl-Ləali” (1/154), “Mustədrak əl-vasəil” (18/147).

* * * * *

## Qanların, malların və namusların toxunulmazlığının şiddəti

**a) Əhli Sünnə mənbələrindən:**

[Allahın Elçisi dedi ﷺ:] *"Bilirsinizmi ən toxunulmaz ay hansıdır?" Dedilər: "Bu ayımızdır". Dedi: "Bilirsinizmi ən toxunulmaz şəhər hansıdır?" Dedilər: "Bu şəhərimiz". Dedi: "Bilirsinizmi ən toxunulmaz gün hansıdır?" Dedilər: "Bu günümüz". Dedi: "Uca və Böyük Allah bu gününüzü, bu ayınızı və bu şəhərinizi toxunulmaz buyurduğu kimi, haqqı istisna olmaqla, qanlarınızı, mallarınızı və namuslarınızı da haram buyurmuşdur. Çatdırdımmı?" O bu sözləri üç dəfə təkrar etdi. Hər dəfə də bu sualları verdikcə orada olanlar: – Bəli – deyə cavab verirdilər. Sonra dedi: "Vay sizin halınıza, məndən sonra bir-birinizin boynunu vuran kafirlərə dönməyin".*

**Mənbə:** Buxari (6785), tam variantda.

Muslimin (66) rəvayətində isə *"Vay sizin halınıza, məndən sonra bir-birinizin boynunu vuran kafirlərə dönməyin"* cümləsi yoxdur.

**b) İmamilərin mənbələrindən:**

*"Ey insanlar, məndən sonra bir-birinizin boynunu vuran kafirlərə dönməyin. İnsanlar "Allahdan başqa ibadətə layiq məbud yoxdur" deyənədək onlarla vuruşmağa əmr olundum. Bunları*

*etsələr, haqlar istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, onların hesabını isə Allahla görüşdükləri vaxt O verər. Çatdırdımmı?” Onlar dedilər: “Bəli”. Dedi: “Allahım şahid ol”.*

**Mənbə:** “Dəaim əl-İslam” (2/402), “Mustədrak əl-vasəil” (18/144).

* * * * *

## Müsəlmanların qanı bərabərdir və onlar başqalarına qarşı əlbir olmalıdırlar

**a) Əhli Sünnə mənbələrindən:**

*“Müsəlmanların qanı bərabərdir, onların ən zəif olanı da bunun üçün çalışmalı, ən yüksəkdə olanı da buna görə səy göstərməlidir. Onlar başqalarına qarşı əlbir olmalıdırlar. Güclüləri zəiflərinə, sürətlə gedənləri oturanlarına əl tutmalıdır. Mömin kafirə görə qətlə yetirilməz, habelə əhdi olan da həmçinin”.*

**Mənbə:** Amr ibn Şueyb ﵁ atasından, o da babasından. Əbu Davud (2753), Əhməd (6970).

**b) İmamilərin mənbələrindən:**

*“Allah, mənim bir sözümü eşidib, onu dərk edib öyrənən və sonra da onu eşitməyənlərə çatdıran bəndəni nurlandırar. Ola bilsin ki, bilgisi olan bir kəs fəqih olmasın. Ola bilsin ki, elmi olan onu daha elmli birisinə vermiş olsun. Üç şey vardır ki, müsəlman olan kəsin qəlbi həmin xüsuslarda şübhəyə düşməz: əməli Allah üçün ixlasla etmək, müsəlmanların rəhbərlərinə nəsihət etmək, müsəlmanların camaatı ilə birlikdə olmaq. Onların gizlində etdikləri dualar onları əhatə edər. Müsəlmanlar qardaşdırlar, onların qanı bərabərdir və ən zəif olanı da bunun üçün çalışmalıdır”.*

**Mənbə:** **“**əl-Kafi” (1/403), “Dəaim əl-İslam” (1/596), “Əmali əs-Saduq” (432), “Bihar əl-ənvar” (21/138).

## İmanın böyük günah etmiş kəsdən qalxması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Zina edən kəs zina etdiyi müddətdə mömin ola bilməz, şərab içən kəs də bunu içdiyi müddətdə mömin ola bilməz, oğurluq edən kəs də bunu etdiyi müddətdə mömin ola bilməz, insanların gözləri baxa-baxa onların malını qəsb edən kəs bunu etdiyi müddətdə mömin ola bilməz".*

**Mənbə:** Əbu Hureyra ﵁. əl-Buxari (4691), Muslim (211), Tirmizi (2625), Əbu Davud (4691), Nəsai (4870) və İbn Macə (3936).

**b) İmamilərin mənbələrindən:**

*"Zina edən mömin olaraq zina etməz, oğurluq edən də bunu etdiyi müddətdə mömin ola bilməz, başqalarının malını qəsb edən kəs də bunu etdiyi müddətdə mömin ola bilməz".*

**Mənbə:** "əl-Kafi" (2/402), "Təhzib əl-Əhkam" (6/371).

Başqa bir rəvayətdə isə deyilir: *"Zina edən mömin olaraq zina etməz, şərab içən kəs də bunu içdiyi müddətdə mömin ola bilməz".* Əbu Cəfər dedi: "Atam deyərdi ki, zina edən bunu etdikdə imanın ruhu onu tərk edər". Mən soruşdum: "Bu zaman imandan əsər əlamət qalırmı, yoxsa bütünlükdə aradan gedir?" O dedi: "Xeyr, onda iman qalır, işini bitirdikdə imanın ruhu ona qayıdır".[23]

[23] "Mən lə yəhduruhul-fəqih" (4/22).

# Müsəlmanların haqları

## a) Əhli Sünnə mənbələrindən:

*"Müsəlmanın müsəlman üzərində beş haqqı vardır: salamı almaq, xəstəni ziyarət etmək, cənazəni müşayiət etmək, dəvətə cavab vermək və asqırdıqda ona "yərhəmukəllah"- demək".*

**Mənbə:** Əbu Hureyra ﷺ. Buxari (1240), Nəsainin "Sünən əl-kubra" əsəri (10049), İbn Macə (1435).

Muslimin ləfzində isə belədir: *"Müsəlmanın müsəlman üzərində altı haqqı vardır".* Soruşdular: "Onlar hansılardır, ey Allahın Elçisi?" Dedi: *"Görüşdükdə salam vermək, dəvət etdikdə cavab vermək, nəsihət istədikdə nəsihət etmək, asqırarkən "əlhəmdulilləh" dedikdə "yərhəmukəllah" demək, xəstələndikdə ziyarət etmək və öldükdə cənazəsini müşayiət etmək".*

## b) İmamilərin mənbələrindən:

*"Müsəlmanın müsəlman üzərindəki haqları görüşdükdə salam vermək, xəstələndikdə ziyarət etmək, olmadıqda nəsihət etmək, asqırarkən: "əlhəmdulilləhi rabbil aləminə lə şərikə ləhu" dedikdə, ona: "yərhəmukəllah" demək. Həmin adam da cavabında ona: "yəhdikumullahu va yuslihu bələkum" deyir. Dəvət etdikdə cavab vermək, öldükdə cənazəni müşayiət etmək".*

**Mənbə: "**əl-Kafi" (2/653), "Mustədrak əl-vasəil" (9/42).

* * * * *

## Müsəlmana zülm etmənin haram olması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu çarəsiz buraxmaz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim müsəlmanın bir çətinliyini aradan qaldırarsa, Allah da Qiyamət günü onun bir çətinliyini aradan qaldırar. Kim bir müsəlmanın ayıbını örtərsə, Allah da Qiyamət günü onun ayıbını örtər".*

**Mənbə:** Abdullah ibn Ömər ﷺ. Buxari (2442), Muslim (6743), Əbu Davud (4895), Tirmizi (1426).

**b) İmamilərin mənbələrindən:**

*"Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu çarəsiz buraxmaz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim müsəlmanın bir çətinliyini aradan qaldırarsa, Allah da Qiyamət günü onun bir çətinliyini aradan qaldırar. Kim bir müsəlmanın ayıbını örtərsə, Allah da Qiyamət günü onun ayıbını örtər".*

**Mənbə:** "Avali əl-Ləali" (1/375)

* * * * *

## İnsanlar arasında mərhəmətə təşviq

**a) Əhli Sünnə mənbələrindən:**

*“Rəhimli olanlara ər-Rəhman rəhm edər; yerdə olanlara rəhm edin, səmadа olan da sizə rəhm etsin”.*

**Mənbə:** Abdullah ibn Amr ﵁. Əbu Davud (4941), Tirmizi (1924). Tirmizi əlavə etmişdir ki, “qohumluq əlaqələrinin ər-Rəhmanla əlaqəsi var. Onu qoruyanları Allah da qoruyar, onu kəsənləri Allah da kəsər”.

**b) İmamilərin mənbələrindən:**

*“Rəhimli olanlara ər-Rəhman rəhm edər; yerdə olanlara rəhm edin, səmada olan da sizə rəhm etsin”.*

**Mənbə:** “Avali əl-Ləali” (1/361), “Mustədrak əl-vasəil” (9/56).

* * * * *

## Başqaları ilə mülayim olmaq

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Hər hənsı bir işdə mülayimlik olarsa, o həmin işi bəzəyər. Hər hansı bir işdə mülayimliyin olmaması isə o işə ayıb gətirər".*

**Mənbə:** Möminlərin anası Aişə. Əhmədin "Müsnəd" əsəri (25709).

2 – *"Kimə mülayimlikdən bir pay verilmişsə, ona xeyirdən bir pay verilmişdir, mülayimlikdən payı olmayanın isə xeyirdən də payı yoxdur".*

**Mənbə:** Əbu Dərda ﵁. Tirmizinin "Sünən" əsəri (2013).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Hər hənsı bir işdə mülayimlik olarsa, o həmin işi bəzəyər. Hər hansı bir işdə həyasızlığın olması isə o işə ayıb gətirər".*

**Mənbə:** "Tuhəf əl-uqul" (48), "Bihar əl-ənvar" (13/15).

2 – *"Kimə mülayimlikdən bir pay verilmişsə, ona dünya və axirət xeyirindən bir pay verilmişdir".*

**Mənbə:** "Mizan əl-hikmə" (2/1102).

* * * * *

## Başqaları ilə davranışda dözümlülüyün fəziləti

**a) Əhli Sünnə mənbələrindən:**

*"Asanlaşdırın, çətinləşdirməyin; müjdələyin, qaçırtmayın".*

**Mənbə:** Ənəs ibn Malik ﷺ. Buxari (69), Muslim (4626). Muslimin rəvayətində deyilir: *"... sakitləşdirin, qaçırtmayın".* Həmçinin Nəsainin "Sünən əl-kubra" əsəri (3/449).

**b) İmamilərin mənbələrindən:**

*"Asanlaşdırın, çətinləşdirməyin; müjdələyin, qaçırtmayın".*

**Mənbə:** "Avali əl-Ləali" (1/381), "Mizan əl-hikmə" (2/951).

* * * * *

## İnsanlara yaxşılıq etmək

**a) Əhli Sünnə mənbələrindən:**

*"Mömin birləşdirən və birləşəndir, birləşdirib birləşməyən kəsdə xeyir yoxdur. İnsanların ən xeyirlisi başqalarına faydalı olandır".*

**Mənbə:** Cabir ibn Abdullah ﵁. "Mucəm əl-əvsat" (6/48).

**b) İmamilərin mənbələrindən:**

*"İnsanların ən xeyirlisi başqalarına faydalı olandır".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (12/390).

* * * * *

# İnsanların arasını düzəltmək

**a) Əhli Sünnə mənbələrindən:**

*"Sizlərə orucun, namazın və sədəqənin dərəcələrindən daha əfzəl bir əməl barəsində xəbər verimmi?"* Dedilər: "Bəli". Dedi: *"İnsanların arasını düzəltmək. İnsanların arasını vurmaq isə savabları aradan qaldırır".*

**Mənbə:** Əbu Dərda ﷺ. Əbu Davud (4921), Tirmizi (2509).

**b) İmamilərin mənbələrindən:**

*"İnsanların arasını düzəltmək namaz və oruclardan daha əfzəldir".*

**Mənbə:** "Təhzib əl-əhkam" (9/177), "Dəaim əl-islam" (2/349), "Bihar əl-ənvar" (42/248).

* * * * *

## Müsəlmana ikram etməyə təşviq

**a) Əhli Sünnə mənbələrindən:**

*“İnsan qardaşına ikram etdikdə Rəbbinə ikram etmiş olur”.*

**Mənbə:** Abdullah ibn Məsud ﵁. əl-Bəzzarın Müsnəd əsəri (5/375).

**b) İmamilərin mənbələrindən:**

*“Şübhəsiz ki, qardaşına ikram edən kəs İzzət və Cəlal Sahibi olan Allaha ikram etmiş olur”.*

**Mənbə:** əs-Saduqun “əl-Amali” əsəri (516), “Məkarim əl-Əxlaq” (431), “Bihar əl-ənvar” (71/303).

* * * * *

## Müsəlmanla gözəl görüşmək

**a) Əhli Sünnə mənbələrindən:**

*"Yaxşı əməllərin heç birini kiçik bilmə, hətta qardaşının üzünə gülümsəməyi belə".*

**Mənbə:** Əbu Zərr ؓ. Muslim (6857), Əhməd (21519).

**b) İmamilərin mənbələrindən:**

*"Yaxşı əməllərin heç birini kiçik bilmə. Yaxşı əməllərdən biri də qardaşını gülərüz təbəssümlə qarşılamağındır".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (12/344).

* * * * *

## Müsəlmanı yedirən, içirən və geydirən kəs

**a) Əhli Sünnə mənbələrindən:**

*“Hər hansı bir müsəlman ehtiyacı olan bir müsəlmana libas geyindirərsə, Allah ona Cənnətin yaşıl libasından geyindirər. Hər hansı bir müsəlman ac bir müsəlmanı yedirərsə, Allah ona Cənnətin məhsulundan daddırar. Hər hansı bir müsəlman susamış bir müsəlmana su içirərsə, Allah ona Cənnətdə möhürlü şərab içirdər”.*

**Mənbə:** Əbu Səid əl-Xudri ﷺ. Əbu Davud (1684), Əbu Yalənin “Müsnəd” əsəri (1111).

**b) İmamilərin mənbələrindən:**

*“Hər hansı bir müsəlman ac bir müsəlmanı yedirərsə, Allah ona Cənnətin məhsulundan daddırar. Hər hansı bir müsəlman ehtiyacı olan bir müsəlmana libas geyindirərsə, Allah ona Cənnətin ipək və bahalı parçasından libas geyindirər. Hər hansı bir müsəlman susamış bir müsəlmana su içirdərsə, Allah ona Cənnətdə möhürlü şərab içirdər. Kim bir müsəlmana onun çətinliyini aradan qaldırmaqda yardım edərsə, heç bir kölgənin olmayacağı bir gündə Allah onu Ərşinin kölgəsində kölgələndirər”.*

**Mənbə:** əs-Saduqun “əl-Amali” əsəri (357), “Vasəil əş-şiə” (5/114).

* * * * *

## Özünə istədiyini qardaşı üçün istəmək imandandır

**a) Əhli Sünnə mənbələrindən:**

*"Sizlərdən biri özünə istədiyini qardaşı üçün istəməyincə iman gətirmiş olmaz".*

**Mənbə:** Ənəs ibn Malik رضي الله عنه. Buxari (13), Muslim (179), Tirmizi (2515), Nəsai (5016), İbn Macə (66).

**b) İmamilərin mənbələrindən:**

*"Sizlərdən biri özünə istədiyini qardaşı üçün istəməyincə iman gətirmiş olmaz".*

**Mənbə:** "Məniyyət əl-murid" (1/180).

* * * * *

## Müsəlmanı tərk etməyin nəhy olunması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə arxa çevirməyin, ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana müsəlman qardaşını üç gündən artıq tərk etməsi caiz deyildir".*

**Mənbə:** Ənəs ibn Malik ﵁. Buxari (6065), Muslim (6690), Əbu Davud (4912), Tirmizi (1935).

**b) İmamilərin mənbələrindən:**

*"Bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizin qeybətini qırmayın, ey Allahın qulları, qardaş olun!".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (9/118), "Cami əhadis əş-şiə" (16/302).

* * * * *

## Allahın kölgələndirəcəyi kəslər

**a) Əhli Sünnə mənbələrindən:**

*"Qiyamət günü yeddi dəstə insanı Allah Təala öz ərşinin kölgəsi altında kölgələndirəcək – o zaman ki, onun kölgəsindən başqa kölgə olmayacaq: ömrünün əvvəlindən Uca Allaha bəndəlik etmiş gənci; qəlbi Uca Allahın ibadətgahına (məscidlərə) bağlı olan və hər zaman ora dönmək barədə düşünən şəxsi; Allah üçün bir-birilərini sevən və o sevgi üzrə bir yerə toplaşıb və həmin sevgi ilə də oradan ayrılan iki şəxsi; gözəl qadının zinaya dəvəti qarşısında "mən Allahdan qorxuram" deyən şəxsi; ehtiyaclılara yardım göstərib, sədəqəni gizlində verən şəxsi".*

**Mənbə:** Əbu Hureyra ﵁. Buxari (660), Muslim (2427), Nəsai (5380), Tirmizi (2391). Orada ya Əbu Hureyradan, ya da Əbu Səiddən rəvayət olunmuşdur.

**b) İmamilərin mənbələrindən:**

*"Qiyamət günü yeddi dəstə insanı Allah Təala öz ərşinin kölgəsi altında kölgələndirəcək: ədalətli rəhbəri; ömrünün əvvəlindən Uca Allaha bəndəlik etmiş gənci; qəlbi Uca Allahın ibadətgahına (məscidlərə) bağlı olan və hər zaman ora dönmək barədə düşünən şəxsi; Allah üçün bir-birilərini sevən və o sevgi üzrə bir yerə toplaşıb və həmin sevgi ilə də oradan ayrılan iki*

*şəxsi; gözəl qadının zinaya dəvəti qarşısında ″mən aləmlərin Rəbbi olan Allahdan qorxuram″ deyən şəxsi; ehtiyaclılara yardım göstərib, sədəqəni gizlində verən şəxsi, xəlvətdə Allahı xatırlayan və gözləri yaşaran kəsi″.*

**Mənbə:** “Avali əl-Ləali” (1/367), “Bihar əl-ənvar” (26/261).

* * * * *

## Bir-birinizi sevmədikcə iman gətirməzsiniz

**a) Əhli Sünnə mənbələrindən:**

*"İman gətirmədikcə Cənnətə daxil ola bilməzsiniz, bir-birinizi sevmədikcə iman gətirə bilməzsiniz. Sizə elə bir şey öyrədimmi ki, onu etdiyiniz təqdirdə bir-birinizi sevəsiniz? – salamı aranızda yayın".*

**Mənbə:** Əbu Hureyra ﷺ. Muslim (203), Əbu Davud (5195), Tirmizi (2688), İbn Macə (68).

**b) İmamilərin mənbələrindən:**

*"Canım əlində olan Allaha and olsun ki, iman gətirmədikcə Cənnətə daxil ola bilməzsiniz, bir-birinizi sevmədikcə iman gətirə bilməzsiniz. Sizə elə bir şey öyrədimmi ki, onu etdiyiniz təqdirdə bir-birinizi sevəsiniz? – salamı aranızda yayın.*

**Mənbə:** "Ravdat əl-vaizin" (1/391), "Mişkət əl-ənvar" (157), "Mustədrak əl-vasəil" (8/362).

* * * * *

## İnsanlara haqlarını vermək

### a) Əhli Sünnə mənbələrindən:

*"Müsəlman ağsaqqala, Quranı əzbər bilən, lakin onunla ifrata varmayan və şənini azaltmayan kəsə, bir də ədalətli rəhbərə hörmət etmək Allaha hörmət etməkdən sayılır".*

**Mənbə:** Buxarinin "Ədəbul-mufrad" əsəri (357), Əbu Davudun "Sünən" əsəri (4845).

### b) İmamilərin mənbələrindən:

*"Müsəlman ağsaqqala, Quranı əzbər bilən və ona əməl edən kəsə, bir də ədalətli rəhbərə hörmət etmək İzzət və Cəlal Sahibi olan Allaha hörmət etməkdən sayılır".*

**Mənbə:** "əl-Kafi" (2/165), ət-Tusinin "Əmali" əsəri (311), "Vasəil əş-şiə" (12/98), "Mustədrak əl-vasəil" (4/244).

* * * * *

## Valideyinlər öldükdən sonra onlara yaxşlıq etmək

**a) Əhli Sünnə mənbələrindən:**

Əbu Useyd Malik ibn Rabiə əs-Saidi ﵁ demişdir: – Bir dəfə biz Allahın elçisinin ﷺ yanında oturduğumuz zaman Bənu Sələmə qəbiləsindən bir nəfər gəlib soruşdu: "Ey Allahın elçisi, valideyinlərim öldükdən sonra onlara hər hansı bir şəkildə yaxşılıq edə bilərəmmi?" Dedi: *"Bəli, onlara cənazə namazı qılmaqla, onlar üçün bağışlanma diləməklə, öldükdən sonra onların istəklərini yerinə yetirməklə, qohumluq əlaqələrini kəsməməklə, onların dostlarına yaxşılıq etməklə".*

**Mənbə:** Əbu Useyd Malik ibn Rabiə ﵁. Əbu Davud (5144), İbn Macə (3664).

**b) İmamilərin mənbələrindən:**

Bir kişi soruşdu: "Ey Allahın elçisi, valideyinlərim öldükdən sonra onlara hər hansı bir şəkildə yaxşılıq edə bilərəmmi?" Dedi: *"Bəli, onlara cənazə namazı qılmaqla, onlar üçün bağışlanma diləməklə, öldükdən sonra onların istəklərini yerinə yetirməklə, onların dostlarına yaxşılıq etməklə, qohumluq əlaqələrini kəsməməklə".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (2/114), "Cami əl-əhadis" (21/426).

* * * * *

## Yaxşı əməllər, o cümlədən valideyinə yaxşılıq etməklə təvəssül etmək

### a) Əhli Sünnə mənbələrindən:

*“Sizdən əvvəlki xalqlardan üç nəfər səfərə çıxmaq məqsədilə yola düzəlmişlər. Gecə yatmaq vaxtı gəlib çatdıqda bir mağaraya rast gəlmiş və gecələmək üçün ora girmişlər. Bu zaman dağdan bir qaya qoparaq mağaranın ağzını örtmüşdü. Onlar: “Bizi buradan ancaq saleh əməllərimizlə Allaha edilən dualar xilas edə bilər” – demişlər. Birincisi söhbətə belə başlamışdır: “Allahım! Mənim çox qoca valideyinlərim var idi. Onlardan qabaq nə ailəmdən, nə xidmətçilərimdən, nə də kölələrimdən heç kimə bir şey yedirtməzdim (axşamlar süd içirtməzdim). Bir gün (heyvanların otlaması və ya odun yığmaq üçün) ağaclıq axtarmaq fikrinə düşməyim məni yubatdı və mən heyvanları sağıb qayıdanda onların artıq yuxuya getdiklərini gördüm. Nə onları oyatmağa qıydım, nə də onlardan qabaq ailəmə və kölələrimə süd verməyə ürəyim gəldi. Uşaqlar ayağıma dolaşaraq acından ağladıqları halda, mən əlimdə qab sübh açılana qədər onların oyanmasını gözlədim. Sonra oyandılar, südlərini içdilər. Allahım! Əgər bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizim buradan çıxmağımızı asanlaşdır”. Qaya bir qədər aralanmışsa da, onlar oradan çıxa bilməmişlər. Aralarından ikincisi belə demişdir: “Allahım! Mənim bir əmim qızı var idi, mən də onu hamıdan çox sevirdim. Ona qarşı olan bu sevgim hətta bir kişinin qadına olan sevgisindən də artıq idi. Ondan özünü istədim, amma o buna razı olmadı. Bir il bərk*

*quraqlıq oldu, torpaq yararsız hala gəldi, məhsul qıtlığı baş verdi. Bu vaxt o yanıma gəldi və məndən yüz iyirmi dinar istədi. Mən də özünü mənə təslim etməsi şərti ilə pulu ona verdim. Razılaşdı. Ona yaxınlıq etmə ərəfəsində mənə: "Allahdan qorx! Haqsızlıq edərək (qanuni nikaha girmədən) bakirəliyimi pozma, bunu sənə halal etmirəm" – dedi. Mən də onu hamıdan çox sevdiyim halda, ona sahib olmaq fikrimdən döndüm və ondan uzaqlaşdım. Verdiyim qızılları da geri götürmədim. Allahım! Əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi düşdüyümüz bu çətinlikdən qurtar!" Qaya bir qədər də aralanmış, lakin bu yenə də onların çıxa bilmələri üçün kifayət etməmişdir. Onlardan üçüncüsü belə demişdir: "Allahım! Mən bir neçə adamı işə götürmüşdüm. Hamısının da haqqını vermişdim, yalnız onlardan biri haqqını almadan getmişdi. Onun pulunu işlədib dövriyyəyə buraxdım. Nəhayət, onun bu pulu ilə malım xeyli çoxaldı. Bir müddətdən sonra yanıma gəlib: "Ey Allahın qulu, haqqımı ver!"– dedi. Mən də: "Gördüyün bu dəvələr, inəklər, qoyunlar, kölələrin hamısı sənin haqqındandır"– dedim. O təəccüblənərək: "Məni ələ salma"– dedi. Mən də: "Səni ələ salmıram"– dedim. O, hamısını özü ilə götürüb apardı, heç nə də saxlamadı. Allahım! əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi buradan qurtar!" Nəhayət, bundan sonra qaya tamamilə aralanmış və onlar çıxıb gedə bilmişlər".*

**Mənbə:** Abdullah ibn Ömər ﷺ. Buxari (2215), Müslim (7127).

**b) İmamilərin mənbələrindən:**

*"Sizdən əvvəlki xalqlardan üç nəfər səfərə çıxmaq məqsədilə yola düzəlmişlər. Gecə yatmaq vaxtı gəlib çatdıqda bir mağaraya rast gəlmiş və gecələmək üçün ora girmişlər. Bu zaman dağdan bir qaya qoparaq mağaranın ağzını örtmüşdü. Onlar: "Bizi buradan ancaq saleh əməllərimizlə Allaha edilən dualar xilas edə bilər" – demişlər. Birincisi söhbətə belə başlamışdır: "Allahım! Mənim çox qoca valideyinlərim var idi. Onlardan qabaq nə ailəmdən, nə xidmətçilərimdən, nə də kölələrimdən heç kimə bir şey yedirtməzdim (axşamlar süd içirtməzdim). Bir gün (heyvanların otlaması və ya odun yığmaq üçün) ağaclıq axtarmaq fikrinə düşməyim məni yubatdı və mən heyvanları sağıb qayıdanda onların artıq yuxuya getdiklərini gördüm. Nə onları oyatmağa qıydım, nə də onlardan qabaq ailəmə və kölələrimə süd verməyə ürəyim gəldi. Uşaqlar ayağıma dolaşaraq acından ağladıqları halda, mən əlimdə qab sübh açılana qədər onların oyanmasını gözlədim. Sonra oyandılar, südlərini içdilər. Allahım! Əgər bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizim buradan çıxmağımızı asanlaşdır". Qaya bir qədər aralanmışsa da, onlar oradan çıxa bilməmişlər. Aralarından ikincisi belə demişdir: "Allahım! Mənim bir əmim qızı var idi, mən də onu hamıdan çox sevirdim. Ona qarşı olan bu sevgim hətta bir kişinin qadına olan sevgisindən də artıq idi. Ondan özünü istədim, amma o buna razı olmadı. Bir il bərk quraqlıq oldu, torpaq yararsız hala gəldi, məhsul qıtlığı baş verdi. Bu vaxt o yanıma gəldi və məndən yüz iyirmi dinar istədi. Mən də özünü mənə təslim etməsi şərti ilə pulu ona verdim. Razılaşdı. Ona*

*yaxınlıq etmə ərəfəsində mənə: “Allahdan qorx! Haqsızlıq edərək (qanuni nikaha girmədən) bakirəliyimi pozma, bunu sənə halal etmirəm” – dedi. Mən də onu hamıdan çox sevdiyim halda, ona sahib olmaq fikrimdən döndüm və ondan uzaqlaşdım. Verdiyim qızılları da geri götürmədim. Allahım! Əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi düşdüyümüz bu çətinlikdən qurtar!” Qaya bir qədər də aralanmış, lakin bu yenə də onların çıxa bilmələri üçün kifayət etməmişdir. Onlardan üçüncüsü belə demişdir: “Allahım! Mən bir neçə adamı işə götürmüşdüm. Hamısının da haqqını vermişdim, yalnız onlardan biri haqqını almadan getmişdi. Onun pulunu işlədib dövriyyəyə buraxdım. Nəhayət, onun bu pulu ilə malım xeyli çoxaldı. Bir müddətdən sonra yanıma gəlib: “Ey Allahın qulu, haqqımı ver!”– dedi. Mən də: “Gördüyün bu dəvələr, inəklər, qoyunlar, kölələrin hamısı sənin haqqındandır”– dedim. O təəccüblənərək: “Məni ələ salma”– dedi. Mən də: “Səni ələ salmıram”– dedim. O, hamısını özü ilə götürüb apardı, heç nə də saxlamadı. Allahım! əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi buradan qurtar!” Nəhayət, bundan sonra qaya tamamilə aralanmış və onlar çıxıb gedə bilmişlər”.*

**Mənbə:** ət-Tusinin “əl-Amali” əsəri (396), əs-Saduqun “əl-Xisal” əsəri (185), “Bihar əl-ənvar” (14/421).

* * * * *

## Valideyinlərinin biri ilə görüşmüş, lakin bunun Cənnətə daxil olmağına səbəb olmaması

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Burnu yerə sürtülsün! Burnu yerə sürtülsün!" Dedilər: "Kimin, ey Allahın elçisi?" Dedi: "O kəsin ki, valideyinlərindən biri və ya hər ikisi sağ ikən onun Cənnətə daxil olmasına səbəb olmurlar.*

**Mənbə:** Əbu Hureyra ﵁. Muslim (6674).

2 – *Peyğəmbər ﷺ minbərə qalxdı. Minbərin birinci pilləsinə qalxıb: "Amin!"– dedi. Sonra ikinci pilləsinə qalxıb: "Amin!"– dedi. Sonra da üçüncü pilləsinə qalxıb: "Amin!"– dedi. (Səhabələr) dedi: "Ey Allahın elçisi! Biz sənin üç dəfə "Amin!" dediyini eşitdik". Peyğəmbər ﷺ dedi: "Birinci pilləyə qalxdıqda Cəbrail yanıma gəlib dedi: "Ramazana yetişib günahları bağışlanmamış halda ondan ayrılan bəndə bədbəxt olsun!" Mən: "Amin!"– dedim. Sonra dedi: "Valideynlərinin hər ikisi, yaxud biri qocalanadək onlarla yaşayıb, sonra da (onların üzlərinə ağ olması səbəbindən) Cənnətə daxil olmayan bəndə bədbəxt olsun!" Mən: "Amin!"– dedim. Sonra dedi: "Yanında xatırlandığın zaman sənə salavat gətirməyən bəndə bədbəxt olsun!" Mən də: "Amin!"– dedim".*

**Mənbə:** Malik ibn əl-Huveyris ﵁. Əbu Yalə (10/328), İbn Hibban (2/140).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Burnu yerə sürtülsün o kəsin ki, həddi-büluğa çatdıqdan sonra valideyinlərindən biri və ya hər ikisi sağ ikən onun Cənnətə daxil olmasına səbəb olmurlar".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (15/155).

2 – *"Cəbrail dua edib dedi: – Valideyinlərinə yetişib onların haqlarını ödəməyən kəsi Allah bağışlamasın. Mən dedim: – Amin! Sonra dedi: – Yanında xatırlandığın zaman sənə salavat gətirməyən kəsi də Allah bağışlamasın. Sonra dedi: – Ramazana yetişib tövbə etməyən kəsi Allah bağışlamasın".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (7/323), "Cami əl-əhadis" (9/33).

* * * * *

## Valideyin müsəlman olmasa belə, ona yaxşılıq etmək

**a) Əhli Sünnə mənbələrindən:**

*Əsma bint Əbu Bəkr demişdir: “Rəsulullahın vaxtında anam hələ müşrik ikən mənim yanıma gəlmişdi. Mən Rəsulullahdan ﷺ fətva soruşdum ki, “Anam öz dininə rəğbət bəslədiyi halda yanıma gəlib, ona yaxşılıq edimmi?” O ﷺ dedi: “Bəli, onun qayğısına qal”.*

**Mənbə:** Buxari (2620), Muslim (2372).

**b) İmamilərin mənbələrindən:**

*“Mən Rəsulullahdan ﷺ soruşdum: – Anam öz dininə rəğbət bəslədiyi halda (yəni şirk üzərində ikən) yanıma gəlib, onun qayğısına qalımmı? O ﷺ dedi: – Bəli, onun qayğısına qal”.*

**Mənbə:** “Mustədrak əl-vasəil” (15/179).

* * * * *

## Qohumlarla əlaqə yaratmaq ömrün və ruzinin artmasına səbəbdir

**a) Əhli Sünnə mənbələrindən:**

*"Kim istəyirsə ki, ruzisi artsın və ömrü uzansın qohumları ilə əlaqə saxlasın".*

**Mənbə:** Əbu Hureyra ﷺ. Buxari (2067), Muslim (6687), Əbu Davud (1693).

**b) İmamilərin mənbələrindən:**

*"Kim istəyirsə ki, ruzisi artsın və ömrü uzansın qohumları ilə əlaqə saxlasın".*

**Mənbə:** "əl-Xisal" (1/41), "Bihar əl-ənvar" (71/89). "əl-Kafi" əsərində isə bu hədis (2/256) daha uzundur.

* * * * *

## Saleh əməlləri yaymaq və bu xüsusda gecikməmək

**a) Əhli Sünnə mənbələrindən:**

*"Əgər yanınıza dinindən və əxlaqından razı qaldığınız biri gəlsə, onu evləndirin, əks təqdirdə yer üzərində fitnə və böyük fəsad yaymış olarsınız".*

**Mənbə:** Əbu Hureyra ﷺ. İbn Macə (1967).

**b) İmamilərin mənbələrindən:**

*"Əgər yanınıza dinindən və əmanətindən razı qaldığınız biri nişanlanmaq üçün gəlsə, onu evləndirin, əks təqdirdə yer üzərində fitnə və böyük fəsad yaymış olarsınız".*

**Mənbə:** ət-Tusinin "əl-Amali" əsəri (519), "Avali əl-Ləali" (3/340), "Bihar əl-ənvar" (100/372).

* * * * *

## Kəniz və qızların izin istəmə forması

**a) Əhli Sünnə mənbələrindən:**

*“Kənizlər danışmağa əmr olunmayınca ərə verilməz, qızlar isə izin alınmayınca ərə verilməzlər”. Soruşdular: “Ondan alınmış izin necə olur?” Dedi: “Susmağı ilə”.*

**Mənbə:** Əbu Hureyra ﵁. Buxari (6970), Muslim (3538), Nəsai (3267).

**b) İmamilərin mənbələrindən:**

*“Kənizlər danışmağa əmr olunmayınca ərə verilməz, qızlar isə izin alınmayınca ərə verilməzlər. Onların izinləri susmaqları ilə olur”.*

**Mənbə:** “Avali əl-Ləali” (3/124).

* * * * *

## Mehrdə qəsdin müstəhəbliyi

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Mehri ən az olan qadınlar ən bərəkətli olanlardır".*

**Mənbə:** Möminlərin anası Aişə. əl-Hakimin "əl-Mustədrak" əsəri (2732).

2 – *"Tələbatı ən az olan qadınlar ən bərəkətli olanlardır".*

**Mənbə:** Möminlərin anası Aişə. Əhməd (25119).

3 – *"Onların ən xeyirlisi mehri ən az olanıdır".*

**Mənbə:** İbn Abbas ﵄. İbn Hibban (4034).

**b) İmamilərin mənbələrindən:**

*"Tələbatı ən az olan qadınlar ən bərəkətli olanlardır".*

**Mənbə:** "Raudat əl-vaizin" (1/375), "Mustədrak əl-vasəil" (4/162).

* * * * *

## Ərin arvad üzərində haqlarının əzəməti

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Kişi öz xanımını yatağına çağırdıqda o gəlməzsə, kişi də bundan dolayı qəzəbli yatarsa, mələklər səhərə qədər həmin qadına lənət oxuyar".*

**Mənbə:** Əbu Hureyra ؓ. Buxari (3237), Muslim (3614).

Muslimdə başqa bir ləfzdə də (3611) vardır: *"Qadın öz ərinin yatağını tərk etmiş halda gecələyərsə, mələklər səhərədək o qadına lənət oxuyar".*

Muslim həmçinin belə bir ləfzdə də (3613) rəvayət etmişdir: *"Canım əlində olan Allaha and olsun ki, hər hansı bir kişi öz xanımını yatağına çağırdıqda o gəlməzsə, əri ondan razı olanadək səmada olan ona qarşı qəzəbli olar".*

2 – *"Əgər bir kimsəyə [Allahdan başqasına] səcdə etməyi əmr etmiş olsaydım, qadının öz ərinə səcdə etməyini əmr edərdim".*

**Mənbələr:** Əbu Hureyra ؓ. Tirmizi (1159); Ənəs ibn Malik ؓ. Nəsainin "Sünən əl-kubra" əsəri (9147); Möminlərin anası Aişə. İbn Macə (1852); Muaz ibn Cəbəl ؓ. İbn Macə (1853).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Kişi öz xanımını yatağına çağırdıqda o, asi olub gəlməzsə, mələklər səhərə qədər həmin qadına lənət oxuyar".*

**Mənbə:** "Raudat əl-vaizin" (1/449).

2 – *“Əgər bir kimsəyə [Allahdan başqasına] səcdə etməyi əmr etmiş olsaydım, qadının öz ərinə səcdə etməyini əmr edərdim”.*

**Mənbə:** “əl-Kafi” (5/508), “Dəaim əl-İslam” (2/216), “Mən lə yəhduruhul-fəqih” (3/439).

* * * * *

## Qadınlarla bağlı tövsiyə

### a) Əhli Sünnə mənbələrindən:

*"Qadınlarınızla yaxşı davranın, onlar sizin yarınızdır. Bundan başqa siz onların heç nəyinə malik deyilsiniz, yalnız açıq-aşkar pozğunluq etmələri istisnadır. Elə bir şey etsələr, onlarla yataqlarınızı ayırın, onları yüngülcə vurun. İtaət etsələr, onlara zülm etməyin. Şübhəsiz ki, sizin qadınlarınız üzərində haqlarınız vardır, qadınlarınızın da sizin üzərinizdə haqları vardır. Sizin qadınlarınız üzərindəki haqlarınıza gəlincə, yatağınıza xoşlamadığınız bir kəsi gətirməmələri, evinizə də xoşlamadığınız bir kimsəni buraxmamalarıdır. Onların sizin üzərinizdəki haqları isə onları gözəl şəkildə geyim və yeməklə təmin etmənizdir".*

**Mənbə:** Amr ibn əl-Əhvas ﷺ. Tirmizi (1163), Nəsainin "Sünən əl-kubra" əsəri (9196).

### b) İmamilərin mənbələrindən:

*"Ey insanlar, şübhəsiz ki, qadınlar sizin yarınızdır. Onlar özlərinə zərər və ya xeyir verə bilməzlər. Siz onları Allahın əmanəti olaraq götürmüsünüz. Allahın kəlməsi ilə onları özünüzə halal etmisiniz. Onların sizin üzərinizdə, sizin də onların üzərində haqları vardır. Sizin onlar üzərində haqqınız yatağınızı toxunmaz saxlamaları, sizə asi olmamalarıdır. Bunları etmiş olsalar, sizin onları ruzi və geyimlə təmin etməyiniz onların haqqıdır. Onları vurmayın".*

**Mənbə:** "əl-Xisal" (487), "Avali əl-Ləali" (133), "Bihar əl-ənvar" (73/350).

## Qadınlarla gözəl davranmaq

**a) Əhli Sünnə mənbələrindən:**

*"Sizin ən xeyirli olanınız qadınlarına qarşı xeyirli olanınızdır".*

**Mənbə:** Abdullah ibn Abbas ﷺ. Tirmizi (3895), İbn Macə (1977). Tirmizi əlavə etmişdir ki: *"... dostunuz öldüyü zaman onu buraxın".* İbn Hibbanın rəvayətində də (9/484) eyni cür ifadə olunmuşdur. İbn Hibban bunu açıqlayaraq demişdir: "Yəni onu yalnız xeyirlə yad edin".

**b) İmamilərin mənbələrindən:**

*"Sizin ən xeyirli olanınız qadınlarına qarşı xeyirli olanınızdır".*

**Mənbə:** "Vasəil əş-şiə" (2/171), "Məkarim əl-Əxlaq" (216).

* * * * *

## Övladları namaza səsləmək və yataqlarını ayırmaq

**a) Əhli Sünnə mənbələrindən:**

*"Övladlarınızın yeddi yaşı olduqda, onları namaza çağırın. On yaşa çatdıqda [itaət etməsələr,] onları vurun və yataqlarını da həmin yaşda ayırın".*

**Mənbə:** Amr ibn Şüeyb ﷺ atasından və babasından. Əbu Davud (495).

**b) İmamilərin mənbələrindən:**

*"Övladlarınızın yeddi yaşı olduqda, onları namaza çağırın. On yaşa çatdıqda [itaət etməsələr,] onları vurun".*

**Mənbə:** "Avali əl-Ləali" (328).

* * * * *

## Qonşularla bağlı şiddətli tövsiyə

**a) Əhli Sünnə mənbələrindən:**

*"Cəbrail qonşu haqqında mənə o qədər danışdı ki, onun da mirasdan pay alacağını güman etdim".*[24]

**Mənbə:** Abdullah ibn Ömər ﵄. Buxari (6015), Muslim (6854); Möminlərin anası Aişə. Muslim (6852), Əbu Davud (5153); Abdullah ibn Amr ﵄. Əbu Davud (5154).

**b) İmamilərin mənbələrindən:**

*"Cəbrail qonşu haqqında mənə o qədər danışdı ki, onun da mirasdan pay alacağını güman etdim".*

**Mənbə:** ət-Tusinin "əl-Amali" əsəri (2/97), "Dəaim əl-İslam" (2/88), "Mən lə yəhduruhul-fəqih" (4/13), "Avali əl-ləali" (1/152).

* * * * *

[24] Bu hədis uzun bir hekayənin davamıdır.

## Qonşuya və qonağa yaxşılıq etmək, xeyirdən başqa bir söz söyləməmək və bunun imandan sayılması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonşusuna əziyyət verməsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonağına ikram etsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, ya xeyir söz söyləsin, ya da sussun".*

**Mənbə:** Əbu Hureyra رضي الله عنه. Buxari (6018), Muslim (183), Əbu Davud (5156), Tirmizi (2500). Tirmizidə qonşu zikr olunmur; Əbu Şureyh رضي الله عنه. Muslim (185), İbn Macə (3612). İbn Macənin ləfzi belədir: *"Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonşusuna yaxşılıq etsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonağına ikram etsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, ya xeyir söz söyləsin, ya da sussun".*

**b) İmamilərin mənbələrindən:**

Bir dəfə Fatimə gəlib bəzi işlərdən Rəsulullaha ﷺ şikayət etdi. Rəsulullah ﷺ da ona bir vərəq verib dedi: "Orada yazılanları öyrən". Vərəqdə yazılmışdı: "Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonşusuna əziyyət verməsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonağına ikram etsin. Kim Allaha və Axirət gününə iman gətirmişsə, ya xeyir söz söyləsin, ya da sussun.

**Mənbə:** "əl-Kafi" (2/667), "Bihar əl-ənvar" (43/62), "Vasəil əş-şiə" (12/126).

## Qonşunun hədləri

**a) Əhli Sünnə mənbələrindən:**

*“Qonşuluq haqqı qırx evdir – sağ, sol, ön və arxa istiqamətlərdə”.*

**Mənbə:** Möminlərin anası Aişə. Beyhəqinin “Sünən əl-kubra” əsəri (6/276). Oradakı hədisdə belə keçir: “Ey Allahın elçisi, qonşunun hədləri nə qədərdir?”– deyə soruşulmuş, o da: “Qırx ev” – deyə cavab vermişdir.

Muhəmməd ibn Şihab əz-Zuhri ﵀. Əbu Davudun “əl-Mərasil” əsəri (350). Orada Zuhri evlərin istiqamətini açıqlamışdır. Bu ləfzlə isə hədisi Əbu Yəala “Müsnəd” əsərində (10/385) rəvayət etmişdir.

**b) İmamilərin mənbələrindən:**

*“Hər qırx evin sakinləri qonşudurlar – ön, arxa, sağ və sol tərəflərdən”.*

**Mənbə:** “əl-Kafi” (2/666), “Bihar əl-ənvar” (71/152), “Vasəil əş-şiə” (12/125).

* * * * *

## Qonşuya əziyyət verməyin haram olmasının bəyanı

**a) Əhli Sünnə mənbələrindən:**

*“Vallahi ki, iman gətirməyib, vallahi ki, iman gətirməyib”. Dedilər: “Kim, ey Allahın Elçisi?” Dedi: “Qonşusu pisliyindən əmin olmayan kəs”.*

**Mənbə:** Əbu Şureyh ﵁. Buxari (5670), Muslim (181).

**b) İmamilərin mənbələrindən:**

Bir dəfə ənsarlardan bir kişi Rəsulullahın ﷺ yanına gəlib dedi: “Mən filankəs oğullarından ev aldım. Ən yaxın qonşularımdan nə xeyir umuram, nə də ki, şərindən əminəm”. Bu zaman Peyğəmbər ﷺ əmr etdi ki, Əli, Salman, Əbu Zərr və dördüncünün kim olduğunu unutdum, deyəsən Miqdad idi, – məsciddə uca səslə bildirsinlər ki, “Qonşusu pisliyindən əmin olmayan kəsin imanı yoxdur”. Onlar bunu üç dəfə dedilər. Sonra sağ, sol, ön və arxa istiqamətlərdəki qonşulara işarə etdi.

**Mənbə:** “əl-Kafi” (2/666), “Bihar əl-ənvar” (71/152), “Vasəil əş-şiə” (12/125).

* * * * *

## Qonşusuna əziyyət verənin lənətlənməsi

**a) Əhli Sünnə mənbələrindən:**

Bir dəfə birisi Rəsulullahın ﷺ yanına gəlib qonşusundan şikayət etdi. O ﷺ dedi: "Get və səbir et". Həmin kişi onun yanına iki-üç dəfə gəldi. O zaman ona dedi: "Get və əşyalarını yola at". O da əşyalarını yola atdı. İnsanlar da onun haqqında danışmağa başladılar, ondan belə etməyinin səbəbini soruşduqda, o, əhvalatı onlara danışdı. İnsanlar da həmin adamı lənətləyərək: "Allah onu belə-belə etsin" – dedilər. Sonra qonşusu onun yanına gəlib dedi: "Evinə qayıt, bundan sonra məndən xoşuna gəlməyəcək bir iş görməyəcəksən".

**Mənbə:** Əbu Hureyra رضي الله عنه. Əbu Davud (5155).

**b) İmamilərin mənbələrindən:**

Bir dəfə birisi Rəsulullahın ﷺ yanına gəlib qonşusunun əziyyətindən şikayət etdi. O ﷺ dedi: "Səbir et". Həmin kişi onun yanına ikinci dəfə gəldi və o ﷺ yenə: "Səbir et" – dedi. Sonra üçüncü dəfə gəldikdə ona dedi: "İnsanlar cüməyə getdikləri zaman get və əşyalarını yola at. İnsanlar səndən bunun səbəbini soruşduqda onlara danış". O, belə də etdi. Sonra qonşusu onun yanına gəlib dedi: "Əşyalarını evinə qaytar, bundan sonra məndən xoşuna gəlməyəcək bir iş görməyəcəksən".

**Mənbə:** "əl-Kafi" (2/668), "Bihar əl-ənvar" (22/122).

## Mömin qonşusu ac ikən doymamalıdır

**a) Əhli Sünnə mənbələrindən:**

*"Qonşusu ac ikən doyan kəs mömin deyildir".*

**Mənbə:** Möminlərin anası Aişə. Hakimin "əl-Mustədrak" əsəri (2/15); Abdullah ibn Abbas ﷺ. Buxarinin "Ədəb əl-mufrad" əsəri (112), Əbu Yəalə (5/92), Təbəraninin "əl-Kəbir" əsəri (12741), Hakim (4/184), Beyhəqinin "Sünən əl-kubra" əsəri (10/3).

**b) İmamilərin mənbələrindən:**

[Allahın Elçisi ﷺ dedi:] *"Qonşusu ac ikən yatan kəs mənə iman gətirməyib".* Sonra o ﷺ dedi: *"Kənd əhlindən ac var ikən yatan kəslərə Qiyamət günü Allah baxmayacaqdır".*

**Mənbə:** "əl-Kafi" (2/668), "Savab əl-əməl" (250), "Vasəil əş-şiə" (12/130).

* * * * *

## Atasından qeyrisinin atalığını iddia edənin günahı

### a) Əhli Sünnə mənbələrindən:

*"Kim bilərəkdən atasından qeyrisinin atalığını iddia edərsə, Cənnət ona haram olar".*

**Mənbə:** Səd ibn Əbu Vaqqas ﷺ və Əbu Bəkra əs-Səqafi ﷺ. Buxari (4327, 4326), Muslim (229), Əbu Davud (5115), İbn Macə (2611). Hədis başqa oxşar ləfzlərlə də nəql olunmuşdur.

### b) İmamilərin mənbələrindən:

*"Kim qəsdən atasından qeyrisinin atalığını iddia edərsə, Cənnət ona haram olar".*

**Mənbə:** "Mustədrak əl-vasəil" (18/210).

* * * * *

## Salamı birinci verən kəs

**a) Əhli Sünnə mənbələrindən:**

*"Kiçik böyüyə, keçən oturana, azlıq çoxluğa salam verməlidir".*

**Mənbə:** Əbu Hureyra ﵁. Buxari (6231), Əbu Davud (5198), Tirmizi (2703). Tirmizinin rəvayətinin əvvəlində belə bir əlavə vardır: *"minik üzərində olan piyadaya..."*

**b) İmamilərin mənbələrindən:**

*"Kiçik böyüyə, keçən oturana, azlıq çoxluğa salam verməlidir".*

**Mənbə:** Kuleyninin "əl-Kafi" əsəri (2/646).

* * * * *

# Əmək haqqının verilməsi

**a) Əhli Sünnə mənbələrindən:**

*“İşçinin əmək haqqını alnının təri qurumamış verin”.*

**Mənbə:** Abdullah ibn Ömər ﵄. İbn Macə (2443).

**b) İmamilərin mənbələrindən:**

*“İşçinin əmək haqqını alnının təri qurumamış verin”.*

**Mənbə:** “Avali əl-Ləali” (3/253), “Cami əhadis əş-şiə” (19/17).

* * * * *

# Dili qorumaq

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *“Adəm oğu səhər yuxudan durduqda bədən üzvləri dilinə belə deyərlər: – Allahdan qorx, sən doğru yolda olsan, biz də doğru yolda olarıq, sən əyri yolda olsan, biz də əyri yolda olarıq”.*

**Mənbə:** Əbu Səid əl-Xudri ﵁. Tirmizi (4/605), Əhməd (18/402).

2 – *“Anan səni itirsin, məgər insanları üzüqoylu Cəhənnəmə varid edən onların dillərinin məhsulu deyilmi?”*

**Mənbə:** Muaz ibn Cəbəl ﵁. Əhməd (22063).

**b) İmamilərin mənbələrindən:**

1 – *“Adəm övladının dili hər gün digər əzalara sual verir ki, səhərə necə çıxmısınız? Onlar da cavabında deyərlər ki, bizi tərk etdiyin müddətdə yaxşıyıq. Sonra ondan yardım istəyib deyərlər: – Bizə qarşı diqqətli ol, biz sənə görə mükafat və ya cəza alarıq.*

**Mənbə:** “Mustədrak əl-Vasəil” (9/25), “əl-İxtisas” (413).

2 – *“Dilini qoru, vay sənin halına, məgər insanları üzüqoylu Cəhənnəmə varid edən onların dillərinin məhsulu deyilmi?”*

**Mənbə:** “Vasəil əş-şiə” (9/252), “Tuhəf əl-uqul” (56), “Bihar əl-ənvar” (74/159).

## Söyüş və lənət kimlərə qadağan edilib

**a) Əhli Sünnə mənbələrindən:**

*"Müsəlmanı söymək fasiqlik, öldürmək isə küfrdür".*

**Mənbə:** Abdullah ibn Məsud ﷺ. Buxari (48), Muslim (230), Tirmizi (1983), İbn Macə (69), Nəsai (4111). Nəsai bu hədisi həm də *məvquf* olaraq rəvayət etmişdir (4105).

**b) İmamilərin mənbələrindən:**

*"Ey Əbu Zərr, qeybət etmə, çünki qeybət zinadan da betərdir".* Mən soruşdum: "Nə üçün, ey Allahın Elçisi?" Dedi: *"Çünki insan zina edib Allaha tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Qeybət isə qeybət olunan kəs bağışlamayınca bağışlanmaz. Ey Əbu Zərr, müsəlmanı söymək fasiqlik, öldürmək isə küfrdür. Onun ətini yemək Allaha qarşı üsyandır, onun malı da qanı kimi haramdır".*

**Mənbə:** Tusinin "əl-Amali" əsəri (2/114), "Vasəil əş-şiə" (12/281), "Mustədrak əl-vasəil" (9/126), "Bihar əl-ənvar" (74/98).

* * * * *

## Müsəlmanlara tənə etmək və onları lənətləmək

**a) Əhli Sünnə mənbələrindən:**

*“Mömin tənə edən, lənət oxuyan, kobud və pis işlər görən birisi deyildir”.*

**Mənbə:** Abdullah ibn Məsud رضي الله عنه. Tirmizinin “Sünən” əsəri (1977).

**b) İmamilərin mənbələrindən:**

*“Sizə hansı sözlərin söylənməsini istəyirsinizsə, insanlara da onu söyləyin. Şübhəsiz ki, Allah lənət edən, söyüş söyən, möminlərə tənə edən, pis işlər görən və həyasız kəsə nifrət edər, iffətli və həyalı olan kəsi sevər”.*

**Mənbə:** əs-Saduqun “Amali” əsəri (326), “Tuhəf əl-uqul” (300), “Bihar əl-ənvar” (65/152). Əbu Cəfər ***“İnsanlara yaxşı söz söyləyin...”*** ayəsinin təfsirində bunu qeyd etmişdir.

* * * * *

## Lənətə layiq olmayan kəsi lənətləyən kəsin məzəmmət olunması

**a) Əhli Sünnə mənbələrindən:**

*“İnsan bir şeyi lənətlədikdə həmin lənət göyə qalxır, səmanın qapıları isə onun ardınca bağlanır. Sonra yerə enir və onun qapıları ardınca bağlanır. Sonra sağa və sola gedir, əgər özünə münasib yer tapmasa lənət edən kəsin özünə qayıdır. Əgər onun yaxınları varsa, onlara, yoxdursa, onu deyənə qayıdır”.*

**Mənbə:** Əbu Dərda ﵁. Əbu Davud (4907).

**b) İmamilərin mənbələrindən:**

1 – *“Şübhəsiz ki, lənət sahibinin ağzından çıxdıqda tərəddüd edir, özünə yer tapmadığı təqdirdə, sahibinə qayıdır”.*

**Mənbə:** “əl-Kafi” (2/504), “Fi savabil-əmal” (270), “Vasəil əş-şiə” (12/301).

2 – *“Lənət öz sahibinin ağzından çıxdıqdan sonra nəzərdə tutulan kəslə özü arasında gedib-gələr. Özünə yer tapmadıqda, öz sahibinə qayıdar. O, ona daha layiq olar. Odur ki, mömin bir kəsə lənət etməkdən çəkinin”.*

**Mənbə:** “Qurb əl-isnad” (3/9), “Bihar əl-ənvar” (69/208).

* * * * *

## Zənn və həsədin pislənməsi haqqında deyilənlər

### a) Əhli Sünnə mənbələrindən:

1 – *"Zənn etməkdən çəkinin, çünki zənn ən yalan söhbətdir. Casusluq etməyin, insanları güdməyin, bir-birinizə nifrət etməyin, qardaş olun".*

**Mənbə:** Əbu Hureyra ﵁. Buxari (5143), Muslim (6071), Əbu Davud (4919), Tirmizi (1988).

2 – *"Üç şey ümmətimdə olacaq: quş uçurtmaq, həsəd və pis zənn".* Bir nəfər soruşdu: "Kimdəsə bunlar varsa bunları necə aradan qaldırsın, ey Allahın Elçisi? O ﷺ dedi: *"Həsəd etdikdə Allahdan bağışlanma dilə, zənn etdikdə bunun ardınca düşmə, quş uçurtduqda keçib get".*

**Mənbə:** Harisə bin Numən ﵁. Təbəraninin "Mucəm əl-kəbir" əsəri (3/228).

### b) İmamilərin mənbələrindən:

*"Zəndən çəkinin, çünki zənn ən yalan söhətdir. Allahın əmr etdiyi kimi, Allah üçün qardaş olun. Bir-birinizdən qaçmayın, casusluq etməyin, pozğunluq etməyin. Bir-birinizin qeybətini etməyin. Bir-birinizlə çəkişməyin, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizə həsəd aparmayın, şübhəsiz ki, od oduncağı yediyi, kimi həsəd də imanı yeyir".*

**Mənbə:** "Qurb əl-isnad" (29), "Bihar əl-ənvar" (72/252).

## Müsəlmanların özəl həyatlarını araşdırmağın nəhy olunması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Ey dili ilə iman gətirmiş, lakin iman qəlbinə girməmiş kəslər! Müsəlmanların qeybətini etməyin, onların şəxsi həyatlarını araşdırmayın. Kim onların şəxsi həyatlarını araşdırarsa, Allah da onun şəxsi həyatını araşdırar. Allah da kimin şəxsi həyatını açıqlayarsa, onu öz evində belə biyabır edər".*

**Mənbə:** Əbu Bərazə əl-Əsləmi ﷺ. Əbu Davud (4882), Əhməd (19776).

**b) İmamilərin mənbələrindən:**

*"Ey dili ilə iman gətirmiş, lakin iman qəlbinə girməmiş kəslər! Müsəlmanları pisləməyin, onların şəxsi həyatlarını araşdırmayın. Kim onların şəxsi həyatlarını araşdırarsa, Allah da onun şəxsi həyatını araşdırar. Uca Allah da kimin şəxsi həyatını açıqlayarsa, onu öz evində belə biyabır edər".*

**Mənbə:** "əl-Kafi" (2/354), "əl-İxtisas" (225), "Bihar əl-ənvar" (72/218).

* * * * *

## Müsəlmanların camaatından ayrılmağın nəhy olunması

**a) Əhli Sünnə mənbələrindən:**

1 – *"Kim camaatdan bir qarış uzaqlaşarsa, İslamın ipini boynundan çıxarmış olar".*

**Mənbə:** Əbu Zərr əl-Ğifari ﵁. Əbu Davud (4760), Əhməd (21561).

2 – "Həlakedici əməllər bunlardır: Sünnəni tərk etmək, beyəti pozmaq, camaatdan ayrılmaq". Kəb ﵁ Əliyə ﵁ dedi: "Xilas edən əməllər isə bunlardır: dilini saxla, evində otur, səhvinə görə ağla."

**Mənbə:** Əli ibn Əbu Talib ﵁. Ramahurmuzinin "əl-Muhəddis əl-fasil" əsəri (592).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Kim camaatdan bir qarış uzaqlaşarsa, İslamın ipini boynundan çıxarmış olar".*

**Mənbə:** "əl-Kafi" (1/450), əs-Saduqun "əl-Amali" əsəri (413), "Bihar əl-ənvar" (27/67).

2 – *"Üç əməl həlak edəndir: müqaviləni pozmaq, Sünnəni tərk etmək, camaatı tərk etmək. Üç əməl isə xilas edəndir: dilini saxlamağın, səhvinə görə ağlamağın və evdə qalmağın".*

**Mənbə:** "əl-Xisal" (85), "Bihar əl-ənvar" (27/67).

## Möminə zərər vuran və ya ona hiylə gələn kəs

**a) Əhli Sünnə mənbələrindən:**

*"Müsəlmana zərər verən və ya onu aldadan kəs lənətlənmişdir".*

**Mənbə:** Əbu Bəkr əs-Siddiq ﷺ. Tirmizi (1941).

**b) İmamilərin mənbələrindən:**

1 – *"Müsəlmanı aldadan bizdən deyildir".*

**Mənbə:** "əl-Kafi" (2/337), "Vasəil əş-şiə" (10/254), "Savab əl-aməl" (371), "Bihar əl-ənvar" (72/285).

2 – *"Müsəlman olan kəs hiylə qurmasın və aldatmasın. Mən Cəbrailin belə dediyini eşitdim: – Hiylə və aldatma Cəhənnəmdədir".* Sonra o ﷺ əlavə etdi: *"Müsəlmana hiylə gələn, həmçinin müsəlmana xəyanət edən kəs bizdən deyildir".*

**Mənbə:** "Uyun əxbar ər-Rida" (1/53), əs-Saduqun "əl-Amali" əsəri (344), "Vasəil əş-şiə" (12/241), "Bihar əl-ənvar" (36/326).

* * * * *

## Söz gəzdirməyin məzəmmət olunması

**a) Əhli Sünnə mənbələrindən:**

*“Üç növ məclis istisna olmaqla məclislər əmanətlədir – haram qan tökülməsi, zina və haqsız olaraq malın mənimsənilməsi”.*

**Mənbə:** Cabir ibn Abdullah ﵁. Əbu Davud (4871).

**b) İmamilərin mənbələrindən:**

*“Üç növ məclis istisna olmaqla məclislər əmanətlədir – haram qan tökülən məclis, zina edilən məclis və haqsız olaraq malın mənimsənildiyi məclis”.*

**Mənbə:** ət-Tusinin “əl-Amali” əsəri (53), “Bihar əl-ənvar” (72/465), “Vasəil əş-şiə” (12/105).

* * * * *

## Söz gəzdirmək və onun insanlar arasında təfriqəyə səbəb olması

**a) Əhli Sünnə mənbələrindən:**

*"Mənim üçün ən sevimli olanınız əxlaqı ən gözəl olan kəsdir – o kəslər ki, mehribandırlar, həm sevilirlər, həm də sevinirlər. Mənim üçün ən xoşagəlməz olanınız isə söz gəzdirənlər, sevimliləri bir-birindən ayıranlar, günahsız insanlarda eyib axtaranlarınızdır.*

**Mənbə:** Əbu Hureyra ﵁. Təbəraninin "əl-Mucəm əl-kəbir" əsəri (964).

**b) İmamilərin mənbələrindən:**

*"İnsanların ən pisi möminlərə nifrət edən, qəlblərin də ona nifrət etdiyi kəslər, söz gəzdirənlər, bir-birini sevənləri ayıranlar, eyib axtaranlardır. Belələrinə Allah nəzər salmayacaq, Qiyamət günü onları təmizə çıxarmayacaq".* Sonra o ﷺ bu ayəni oxudu: ***"O səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi. Allah onların qəlblərini birləşdirdi."***

**Mənbə:** "əl-Amali" (463), "əl-Xisal" (183), "Bihar əl-ənvar" (64/298).

* * * * *

## Üçüncü şəxsin hüzurunda iki adamın gizli danışması

**a) Əhli Sünnə mənbələrindən:**

*“Üç nəfər birlikdə ikən onlardan ikisi gizli danışmasın”.*

**Mənbə:** Abdullah ibn Ömər ﷺ. Buxari (2825), Tirmizi (5930).

**b) İmamilərin mənbələrindən:**

*“Üç nəfər birlikdə ikən onlardan ikisi gizli danışmasın, çünki bu həmin şəxsə əziyyət verir”.*

**Mənbə:** “əl-Kafi” (2/660), “Vasəil əş-şiə” (12/105).

* * * * *

## Haqlı olduğu halda belə mübahisəni tərk edən kəs

**a) Əhli Sünnə mənbələrindən:**

*"Haqlı olduqda belə, mübahisəni tərk edən kəsə mən Cənnətdə bir ev veriləcəyinə zaminəm. Zarafat olsa belə, yalanı tərk edən kəsə mən Cənnətin ortasında ev veriləcəyinə zaminəm. Əxlaqı gözəl olan kəsə isə Cənnətin ən uca yerində ev veriləcəyinə zaminəm".*

**Mənbə:** Əbu Umamə ﵁. Əbu Davud (4802).

**b) İmamilərin mənbələrindən:**

*"Haqlı olduqda belə, mübahisəni tərk edən kəsə Cənnətdə bir ev veriləcəyinə, zarafat olsa belə, yalanı tərk edən kəsə Cənnətin ortasında ev veriləcəyinə, əxlaqı gözəl olan kəsə isə Cənnətin ən uca yerində ev veriləcəyinə zaminəm".*

**Mənbə:** "əl-Xisal" (144), "Bihar əl-ənvar" (2/128).

* * * * *

## Mübahisənin məzəmmət olunması

**a) Əhli Sünnə mənbələrindən:**

*“Qardaşınla mübahisə etmə, onunla [yersiz] zarafat etmə, ona verdiyin vədə xilaf çıxma”.*

**Mənbə:** Abdullah ibn Abbas ﵄. Tirmizi (1995).

**b) İmamilərin mənbələrindən:**

*“Bir adamı sevdikdə onunla [yersiz] zarafat etmə və onunla mübahisə etmə”.*

**Mənbə:** “əl-Kafi” (2/664), “Avali əl-Ləali” (1/190), “Vasəil əş-şiə” (12/117).

* * * * *

## Soyları söymək cahiliyyət əməllərindəndir

**a) Əhli Sünnə mənbələrindən:**

*"Ümmətimdə cahiliyyət dövründən qalmış dörd əməl vardır ki, onlar onu əsla tərk etməyəcəklər: nəsil-nəcabətlə fəxr etmək, nəsillərə tənə etmək, ulduzlardan yardım ummaq və ah-nalə çəkmək."*

Allahın Elçisi ﷺ həmçinin demişdir: *"Ah-nalə çəkən qadın ölməmişdən öncə bu əməlindən tövbə etməzsə, Qiyamət günü əynində qətrandan olan libas və qalxanlı zireh olacaqdır."*

**Mənbə:** Əbu Malik əl-Əşari ؓ. Muslim (2203).

**b) İmamilərin mənbələrindən:**

*"Ümmətimdə dörd əməl Qiyamət gününədək olacaqdır: nəsil-nəcabətlə fəxr etmək, nəsillərə tənə etmək, ulduzlardan yardım ummaq və ah-nalə çəkmək."* Allahın Elçisi ﷺ həmçinin demişdir: *"Ah-nalə çəkən qadın ölməmişdən öncə bu əməlindən tövbə etməzsə, Qiyamət günü əynində qətrandan olan libas və qalxanlı zireh olacaqdır."*

**Mənbə:** "əl-Xisal" (1/234), "Vasəil əş-şiə" (17/128), "Bihar əl-ənvar" (22/451).

* * * * *

## Ədalətli rəhbərin fəziləti

**a) Əhli Sünnə mənbələrindən:**

*"Qiyamət günü Allah üçün ən sevimli, mənə də ən yaxın olacaq kimsə ədalətli rəhbərdir. Qiyamət günü Allahın ən çox nifrət edəcəyi və məndən ən çox uzaq olacaq kəs də zülmkar rəhbərdir".*

**Mənbə:** Əbu Səid əl-Xudri ﵁. Tirmizi (6/617), Əhməd (11190).

**b) İmamilərin mənbələrindən:**

*"Qiyamət günü Allah üçün ən sevimli, mənə də ən yaxın olacaq kimsə ədalətli rəhbərdir. Qiyamət günü Allahın ən çox nifrət edəcəyi və ən çox əzab çəkəcək kəs də zülmkar rəhbərdir".*

**Mənbə:** "Ravdat əl-vaizin" (466), "Bihar əl-ənvar" (72/351).

* * * * *

## Beyətə vəfa etmək

### a) Əhli Sünnə mənbələrindən:

*"Üç şəxsi Allah danışdırmayacaq, onlara nəzər salmayacaq və onlara şiddətli bir əzab verəcəkdir: əlavə suya malik ola-ola yoldan keçən kəsə ondan istifadə etməyə mane olan kəs, o kəs ki, birisinə dünya məqsədləri üçün beyət edir, ona istədiyi verildikdə vəfalı olur, əks təqdirdə isə vəfalı olmur. Bir də o kəs ki, axşamçağı birisinə mal satarkən yalandan Allaha and içir ki, bu qədər verirdilər, vermədim".*

**Mənbə:** Əbu Hureyra ﷺ. Buxari (2676), Muslim (173), Nəsai (4462).

### b) İmamilərin mənbələrindən:

*"Üç şəxsi Allah danışdırmayacaq, onlara nəzər salmayacaq və onlara şiddətli bir əzab verəcəkdir: o kəs ki, birisinə dünya məqsədləri üçün beyət edir, ona istədiyi verildikdə vəfalı olur, əks təqdirdə isə vəfalı olmur. O kəs ki, axşamçağı birisinə mal satarkən yalandan İzzət və Cəlal Sahibi olan Allaha and içir ki, bu qədər verirdilər, vermədim, alıcı da ona inanıb malı alır, lakin həmin mal vəsf etdiyi kimi olmur. Bir də əlavə suya malik ola-ola yoldan keçənə ondan istifadə etməyə mane olan kəs".*

**Mənbə:** "əl-Xisal" (1/107), "Dəaim əl-İslam" (2/18), "Bihar əl-ənvar" (64/185).

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

**Əhli Sünnə mənbələri:**

1. Əhməd ibn əl-Hüseyn ibn Əli əl-Beyhəqi, "Sünən əl-kubra". "Məclis dairatul-məarif ən-nizamiyyə" nəşriyyatı, Heydərabad. Birinci nəşr, 1344 h.

2. Əhməd ibn Şüeyb ən-Nəsai, "Sünən əl-kubra". Təhqiq: Həsən Əbdul-Munim Şələbi. "ər-Risalə" müəssisəsi, Beyrut. Birinci nəşr, 1421 h. (2001 m.).

3. Əhməd ibn Şüeyb ən-Nəsai, "Sünən ən-Nəsai". Təhqiq: Əbdül-Fəttah Əbu Ğuddə. "əl-Mətbuət əl-islamiyyə" nəşr ofisi, Hələb. 2-ci nəşr, 1406 h. (1976 m.).

4. Əhməd ibn Əli ibn əl-Musənnə, Əbu Yəalə əl-Mousili, "Müsnəd Əbu Yəalə". Təhqiq: Hüseyn Səlim Əsəd, "əl-Məmun" İrs evi. Dəməşq, 1-ci nəşr, 1404 h. (1984 m.).

5. Əhməd ibn Amr ibn Əbdül-Xaliq əl-Bəzzar, "əl-Bəhruz-zəxxar". Təhqiq: Məhfuzzur-Rahmən Zeynullah, Adil ibn Səid, Sabri Abdul-xaliq əş-Şafii, "əl-Ulumu val-hikəm" nəşriyyatı. Mədinə, 1-ci nəşr.

6. Əhməd ibn Muhəmməd ibn Hənbəl əş-Şeybani, "Müsnəd Əhməd". "ər-Risalə" müəssisəsi, Beyrut.

7. İsmail ibn Ömər ibn Kəsir əl-Quraşi əd-Diməşqi, "Təfsir əl-Quran əl-azim". Təhqiq: Sami ibn Muhəmməd Sələmə. "Taybə" nəşriyyatı, 2-ci nəşr, 1420 h. (1999 m.).

8. əl-Həsən ibn Abdur-Rahmən ibn Xalləd ər-Ramahur-muzi, böyük fars mühəddisi. Təhqiq: Muhəmməd İcac əl-Xatib. "əl-Fikr" nəşriyyatı, Beyrut, 3-cü nəşr, 1404 h.

9. Süleyman ibn Əhməd ibn Əyyub ibn Muteyr ət-Təbərani, "əl-Mucəm əl-əvsat". Təhqiq: Tariq ibn İbadallah ibn

Muhəmməd, Əbdül-Muhsin ibn İbrahim əl-Hüseyni. "Dar əl-Hərameyn", Qahirə.

10. Süleyman ibn Əhməd ibn Əyyub ibn Muteyr ət-Təbərani, "əl-Mucəm əl-kəbir". Təhqiq: Həmdi ibn Əbdül-Məcid əs-Sələfi. "İbn Teymiyyə" nəşriyyatı, Qahirə.

11. Süleyman ibn əl-Əşəs əs-Sicistani, "Sünən Əbu Davud". Təhqiq: Muhəmməd Muhyiddin Əbdül-Həmid. "Dar əl-Fikr", Suriya.

12. Süleyman ibn əl-Əşəs, "əl-Mərasil". Təhqiq: Şüeyb əl-Arnaut. "ər-Risalə" müəssisəsi, Beyrut, 1-ci nəşr, 1408 h.

13. Əbdür-Rəhman ibn Əli ibn Muhəmməd əl-Cəuzi, "Kəşful-muşkil min hədisis-səhiheyn". Təhqiq: Əli Hüseyn əl-Bəvvab. "Dar əl-Vatan" nəşriyyatı, ər-Riyad.

14. Muhəmməd ibn İsmail əl-Buxari, "Səhih əl-Buxari". Təhqiq: Muhəmməd Zuheyr ibn Nasir ən-Nasir. "Dar Tuq ən-Nəcat Məsvərə Sultaniyyə", Muhəmməd Fuad Abdul-Baqinin sıralaması ilə, 1-ci nəşr, 1422 h.

15. Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxari, "əl-Ədəbul-Mufrad". Təhqiq: Samir ibn Əmin əz-Zuheyri. "əl-Məarif" nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, 1419 h. (1998 m.).

16. Muhəmməd ibn Hibban ibn əl-Busti, "əl-İhsan fi təqrib Səhih İbn Hibban". Tərtib: əl-Əmir Əlaəddin Əli ibn Bəlban əl-Farisi. Təhqiq: Şüeyb əl-Arnaut. "ər-Risalə" müəssisəsi, Beyrut, 1-ci nəşr, 1408 h. (1988 m.).

17. Muhəmməd ibn Abdullah ibn Muhəmməd ibn Həmdaveyh, əl-Hakim ən-Nisaburi, "əl-Mustədraku aləs-səhiheyn". Təhqiq: Mustafa Abdul-Qadir Əta. "əl-Kutub əl-ilmiyyə" nəşriyyatı, Beyrut, 1-ci nəşr, 1411 h. (1990 m.).

18. Muhəmməd ibn İsa ibn Səura ət-Tirmizi, "Sünən ət-Tirmizi". Təhqiq və əlavələr: Əhməd Muhəmməd Şakir, Muhəmməd Fuad Abdul-Baqi, İbrahim Atva İvad. "Məktəbə şirkəti və Mustafa əl-Babi əl-Hələbi mətbəəsi", Misir, 2-ci nəşr, 1395 h. (1975 m.).

19. Muhəmməd ibn Yəzid əl-Qəzvini, "Sünən İbn Macə". Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi. "İhta əl-kutub əl-arabiyyə" nəşriyyatı. Feysal İsa əl-Babi əl-Hələbi.

20. Muslim ibn Həccac, "Səhih Muslim". Təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi. "Dar İhya ət-turas əl-Arabi", Beyrut.

21. Yəhya ibn Şəraf ən-Nəvəvi, "əl-Mənhəc Şərh Səhih Muslim ibn əl-Həccac". "Dar İhya ət-turas əl-Arabi", Beyrut, 2-ci nəşr, 1392 h.

**İmamilərin mənbələri:**

1. İbn Şöbə əl-Hərrani, "Tuhəf əl-uqul". Təshih və əlavələr: Əli Əkbər əl-Ğifari. 2-ci nəşr, 1404 h. "Müəllimlər camaatına məxsus ən-Nəşr əl-İslami" müəssisəsi, Qum.

2. əl-Həsən ət-Tabrasi, "Məkarim əl-əxlaq". 6-cı nəşr, 1392 h (1972 m.), "əş-Şəraf ər-Ridanın nəşrləri".

3. əl-Hüseyn ibn Səid, "əl-Mumin". Təhqiq: İmam Mehdi məktəbi. 1-ci nəşr, 1404 h. "İmam Mehdi" mədrəsəsi, Qum.

4. Zeynud-din ibn Əli əl-Amili, "Məniyyətul-Murid fi Ədəbil-mufid val mustəfid". 1-ci nəşr, 1409 h. "əl-İlam əl-İslami" nəşriyyatı.

5. Seyyid əl-Bürucərdi, "Cami əhadis əş-şiə". 1399 h. "əl-Məktəbət əl-ilmiyyə", Qum.

6. Şərif Rida, "Nəhcul-bəlağə" (Xutab İmam Əli). 1-ci nəşr, 1412 h. "ən-Nəhda", Qum.

7. Abdullah ibn Cəfər əl-Humeyri, "Qurb əl-İsnad". "Ali beyt əleyhimus-salam li-ihya ət-turas" müəssisəsi, İran. 10-cu nəşr, 1413 h.

8. Əli ət-Tabərsi, "Mişkat əl-ənvar". Təhqiq: Mehdi Huşməndi. "Dar əl-hədis", 1-ci nəşr, 1418 h.

9. Fədlullah ər-Ravandi, "ən-Nəvadir". Təhqiq: Səid Rida Əli Əskəri. "Dar əl-Hədis", 1-ci nəşr.

10. Muhəmməd ər-Rişəhri, "Mizan əl-hikmə". Təhqiq: "Dar əl-Hədis", 1-ci nəşr.

11. Muhəmməd Baqir əl-Məclisi, "Bihar əl-ənvar əl-camiə li-durar əxbar əl-əimmətil-athar". "əl-Vafə" müəssisəsi, Beyrut. 2-ci nəşr, 1403 h. (1983 m.).

12. Muhəmməd əl-Həsən əl-Hur əl-Amili, "əl-Fusul əl-muhimmə fi mərifətil-əimmə". Təhqiq: Muhəmməd ibn Muhəmməd əl-Hüseyn əl-Qaini. "Məarif İslami İmam Rida" muəssisəsi, İran. 1-ci nəşr, 1418 h.

13. Muhəmməd ibn əl-Həsən əl-Hur əl-Amili, "Vasəil əş-şiə ilə təhsil məsail əş-şəriə". "Ali-beyt aleyhimus-salam li-ihya ət-turas" müəssisəsi, İran. 2-ci nəşr, 1414 h.

14. Muhəmməd ibn əl-Həsən əs-Saffər, "Bəsair əd-dəracət". Təshih və əlavələr: Hacı Mirzə Həsən Koca Baği. 1404 h. "əl-Əhmədi mətbəəsi", "əl-Əalami" nəşrləri, Tehran.

15. Muhəmməd ibn əl-Həsən ət-Tusi, "əl-Amali". Təhqiq: İslam elmləri şöbəsi. "əl-Bəasə" nəşriyyatı və müəssisəsi, Qum.

16. Muhəmməd ibn əl-Həsən ət-Tusi, "Təhzib əl-əhkam". Təhqiq və əlavələr: Həsən əl-Musəvi əl-Xorasani. "əl-Kutub əl-isləmiyyə" nəşriyyatı, İran. 3-cü nəşr, 1390 h.

17. Muhəmməd ibn əl-Fəttal ən-Nisaburi, "Raudat əl-vaizin". Təqdimat: Seyyid Muhəmməd Mehdi Seyyid Həsən əl-Xorasan. "Şərif ər-Rida" nəşrləri, Qum.

18. Muhəmməd ibn ən-Noman əl-Əkbəri, "əl-İxtisas". "Dar əl-mufid nəşriyyatı və yayım evi", Beyrut. 2-ci nəşr, 1414 h. (1993 m.).

19. Muhəmməd ibn Əli əl-İhsai, İbn Əbu Cumhur, "Avali əl-Ləali". Təhqiq: Ağa Muctəba əl-İraqi, Seyyiduş-şuhəda, İran. 1-ci nəşr, 1403 h. (1983 m.).

20. Muhəmməd ibn Əli əl-Qummi, "əl-Amali". Təhqiq: "əl-Bəasə" müəssisəsində İslam elmləri şöbəsi, Qum. 1-ci nəşr, 1417 h. "əl-Bəasə" nəşriyyatı və yayım evi.

21. Muhəmməd ibn Əli əl-Qummi, "əl-Amali". "əl-Bəasə" müəssisəsi, İran. 1-ci nəşr, 1417 h.

22. Muhəmməd Əli əl-Qummi, "əl-Xisal". Təshih və əlavələr: Əli Əkbər əl-Ğifari. 1403 h. Qumdakı elmi hövzənin müəllimlərinin nəşrləri.

23. Muhəmməd ibn Əli əl-Qummi, "Savab əl-əaməl va iqab əl-əaməl". Təhqiq və təqdimat: Seyyid Muhəmməd Mehdi Seyyid Həsən əl-Xorasan. "Şərif ər-Rida" nəşrləri, Qum. 1-ci nəşr.

24. Muhəmməd ibn Əli əl-Qummi, "İləl əş-şərai". "əl-Heydəriyyə" kitabxanasının nəşrləri, İraq. 1385 h. (1966 m.).

25. Muhəmməd ibn Əli əl-Qummi, "Uyun axbar ər-Rida". Təshih və əlavələr: Hüseyn əl-Əalami. "əl-Əalami" mətbəəsi və müəssisəsi, Beyrut. 1404 h. (1984 m.).

26. Muhəmməd ibn Əli əl-Qummi, "Mən lə yəhduruhul-fəqih". Təshih və əlavələr: Əli Əkbər əl-Ğifari. "ən-Nəşr əl-islami" müəssisəsinin müəllimlərinin nəşrləri, İran, 1398 h.

27. Muhəmməd ibn Yaqub əl-Kuleyni, "əl-Kafi". Təshih və əlavələr: Əli Əkbər əl-Ğifari. "əl-Kutub əl-islamiyyə" nəşriyyatı, İran. 5-ci nəşr, 1363 h.

28. "Mustədrak əl-vasəil və mustənbat əl-vasəil". "Ali beyt aleyhimus-salam li-ihya ət-turas müəssisəsi", İran. 1-ci nəşr, 1408 h. (1978 m.).

29. ən-Noman ibn Muhəmməd əl-Məğribi, "Dəaim əl-İslam". Təhqiq: Asif ibn Əli Əsğər Faydi. "əl-Məarif" nəşriyyatı, Qahirə, 1383 h. (1963 m.).